# “AZƏRPOÇT” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Maliyyə Hesabatları və**
**Müstəqil Auditorların Rəyi**
31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə

# "AZƏRPOÇT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-3 |
| 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7-8 |
| Maliyyə hesabatları üzrə qeydlər | 9-56 |

# MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə, "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini düzgün şəkildə əks etdirən maliyyə hesabatlarının Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin müvafiq qanunvericiliyə və mühasibat uçotu standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə Cəmiyyətin maliyyə hesabatları 30 aprel 2025-ci il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərliyin adından:**

**İsi Mustafayev**
**İdarə Heyətinin sədr vəzifəsini müvəqqəti icra edən**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Çingiz Qurbanov**
**İdarə Heyətinin üzvü**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

bakertilly

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin səhmdarı və rəhbərliyinə:

***Rəy***

Biz "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Cəmiyyət") 31 dekabr 2024-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan, pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə əhəmiyyətli uçot prinsiplərinə dair məlumatlar daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət etmədiyi halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

# “AZƏRPOÇT” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 7 | 37,948,982 | 37,380,922 |
| İstifadə hüququ olan aktivlər | 8 | 197,067 | 391,429 |
| Qeyri-maddi aktivlər | 9 | 1,541,073 | 1,361,421 |
| Uzunmüddətli aktivlər üzrə avans ödənişləri | 10 | - | 398,312 |
| İnvestisiya qiymətli kağızları | 6, 11 | 153,980,277 | 187,209,884 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 12 | 963,374 | 947,051 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **194,630,773** | **227,689,019** |
| **Cari aktivlər:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 417,511,073 | 161,182,014 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 6, 14 | 12,903,915 | 14,912,019 |
| Mal-material ehtiyatları | 15 | 2,035,878 | 2,034,179 |
| İnvestisiya qiymətli kağızları | 6, 11 | 146,225,052 | 167,811,384 |
| Əks repo müqavilələri üzrə debitor borcları | 6 | - | 31,033,108 |
| Digər aktivlər | 16 | 223,131 | 166,402 |
| **Cəmi cari aktivlər** | | **578,899,049** | **377,139,106** |
| **CƏMİ AKTİVLƏR** | | **773,529,822** | **604,828,125** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| İcarə öhdəlikləri | 19 | 63,147 | 76,945 |
| Digər borc alınmış vəsaitlər | 6, 17 | 5,135,586 | 6,618,452 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **5,198,733** | **6,695,397** |
| **Cari öhdəliklər:** | | | |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 6, 18 | 156,877,199 | 54,773,388 |
| İcarə öhdəlikləri | 19 | 141,851 | 338,462 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 6, 20 | 25,056,158 | 16,136,641 |
| Müştəri hesabları | 6, 21 | 522,358,444 | 468,020,472 |
| Digər borc alınmış vəsaitlər | 6, 17 | 1,945,215 | 1,944,805 |
| **Cəmi cari öhdəliklər** | | **706,378,867** | **541,213,768** |
| **Cəmi öhdəliklər** | | **711,577,600** | **547,909,165** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | 22 | 73,357,719 | 73,357,719 |
| Digər ehtiyatlar | | 1,366,111 | 1,366,111 |
| Yığılmış zərər | | (12,771,608) | (17,804,870) |
| **Cəmi kapital** | | **61,952,222** | **56,918,960** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **773,529,822** | **604,828,125** |

**Rəhbərliyin adından:**

**İsi Mustafayev**
**İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Çingiz Qurbanov**
**İdarə Heyətinin üzvü**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-56-cı səhifələrdə verilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "AZƏRPOÇT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
### 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **GƏLİRLƏR:** | | | |
| Poçt xidmətləri üzrə əldə olunan gəlir | 6, 23 | 22,810,022 | 22,644,088 |
| Maliyyə xidmətləri üzrə əldə olunan gəlir | 6, 23 | 14,523,365 | 14,769,027 |
| Digər xidmətlər üzrə əldə olunan gəlir | 6, 23 | 12,237,206 | 9,621,895 |
| **CƏMİ GƏLİRLƏR** | | **49,570,593** | **47,035,010** |
| **MƏSRƏF VƏ XƏRCLƏR:** | | | |
| Əməliyyat xərcləri | 24 | (38,642,582) | (30,656,035) |
| Ümumi və inzibati xərclər | 25 | (27,370,480) | (26,611,441) |
| Köhnəlmə və amortizasiya | 7, 8, 9 | (5,030,354) | (4,393,428) |
| Digər gəlirlər | 26 | 1,291,403 | 1,000,000 |
| **ƏMƏLİYYAT ZƏRƏRİ** | | **(20,181,420)** | **(13,625,894)** |
| İnvestisiya qiymətli kağızlarından əldə olunan gəlir | 6, 11 | 22,964,763 | 22,228,361 |
| Əks repo müqavilələri üzrə alınacaq vəsaitlər üzrə faiz gəliri | 6 | 407,830 | 1,552,802 |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərlərinin geri qaytarılması/(ehtimal olunan kredit zərərləri) | 6, 11, 14 | 2,670,485 | (5,459,094) |
| Cari hesab üzrə faiz gəliri | | 4,720,211 | 1,920,498 |
| Maliyyə xərcləri | 27 | (4,435,871) | (522,033) |
| Əmlak, tikili və avadanlıqlar üzrə dəyərsizləşmə zərərləri | 7 | - | (138,621) |
| İcarə müqavilələrinin ləğvindən əldə olunan gəlir | 8, 19 | 1,072 | 3,524 |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə zərər | | (7,910) | (3,465) |
| Xarici valyuta mübadiləsi üzrə zərər | | (156,562) | (105,239) |
| **MƏNFƏƏT VERGİSİNDƏN ƏVVƏL XALİS MƏNFƏƏT** | | **5,982,598** | **5,850,839** |
| Mənfəət vergisi üzrə xərc | 12 | (949,336) | (303,936) |
| **İL ÜZRƏ XALİS MƏNFƏƏT** | | **5,033,262** | **5,546,903** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **5,033,262** | **5,546,903** |

**Rəhbərliyin adından:**

**İsi Mustafayev**
**İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Çingiz Qurbanov**
**İdarə Heyətinin üzvü**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-56-cı səhifələrdə verilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "AZƏRPOÇT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Digər ehtiyatlar | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2023-cü il** | **73,357,719** | **56,717** | **(23,417,209)** | **49,997,227** |
| İl üzrə xalis mənfəət | - | - | 5,546,903 | 5,546,903 |
| Borc alınmış vəsaitlərin ədalətli dəyərinin tanınması üzrə yaranan kapital elementi (17 saylı Qeyd) | - | 1,309,394 | - | 1,309,394 |
| Ümumi nəzarət altında olan müəssisələr arasında hesablaşmalar (6 saylı Qeyd) | - | - | 65,436 | 65,436 |
| **31 dekabr 2023-cü il** | **73,357,719** | **1,366,111** | **(17,804,870)** | **56,918,960** |
| İl üzrə xalis mənfəət | - | - | 5,033,262 | 5,033,262 |
| **31 dekabr 2024-cü il** | **73,357,719** | **1,366,111** | **(12,771,608)** | **61,952,222** |

**Rəhbərliyin adından:**

**İsi Mustafayev**
**İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Çingiz Qurbanov**
**İdarə Heyətinin üzvü**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-56-cı səhifələrdə verilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "AZƏRPOÇT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 5,982,598 | 5,850,839 |
| Nağdsız vəsaitlər üzrə düzəlişlər: | | | |
| Əmlak, tikili və avadanlıqlar və istifadə hüququ olan aktivlər üzrə köhnəlmə | 7, 8 | 4,652,830 | 4,279,661 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 9 | 377,524 | 113,767 |
| İnvestisiya qiymətli kağızlarından əldə olunan gəlir | 11 | (22,964,763) | (22,228,361) |
| Əks repo müqavilələri əsasında alınacaq vəsaitlər üzrə faiz gəliri | | (407,830) | (1,552,802) |
| Maliyyə aktivləri üzrə (ehtimal olunan kredit zərərlərinin geri qaytarılması)/ehtimal olunan kredit zərərləri | 11, 14 | (2,670,485) | 5,459,094 |
| Əmlak, tikili və avadanlıqlar üzrə dəyərsizləşmə zərəri | 7 | - | 138,621 |
| Maliyyə xərcləri | 27 | 4,435,871 | 522,033 |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə zərər | | 7,910 | 3,465 |
| İcarə müqavilələrinin ləğvindən əldə olunan gəlir | 8, 19 | (1,072) | (3,524) |
| Məzənnə fərqlərində xarici valyuta mübadiləsi üzrə zərər | | 156,562 | 105,239 |
| Əməliyyat aktivləri və öhdəliklərindəki dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti | | **(10,430,855)** | **(7,311,968)** |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər | | | |
| Əməliyyat aktivlərində (artma)/azalma: | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlərdə dəyişiklik | | 3,405,834 | 1,817,855 |
| Mal-material ehtiyatlarında dəyişiklik | | (1,699) | (108,862) |
| Digər cari aktivlərdə dəyişiklik | | (56,729) | 114,404 |
| Əməliyyat öhdəliklərində artma/(azalma): | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlərdə dəyişiklik | | 9,477,532 | (7,038,401) |
| Müştəri hesablarında dəyişiklik | | 54,337,972 | (73,397,823) |
| Əməliyyat aktivləri və öhdəliklərində cəmi dəyişikliklər | | **56,732,055** | **(85,924,795)** |
| Ödənilmiş mənfəət vergisi | | (1,803,691) | (156,148) |
| **Əməliyyat fəaliyyətindən daxil olan/(istifadə olunan) xalis pul vəsaitləri** | | **54,928,364** | **(86,080,943)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| İnvestisiya qiymətli kağızlarının satışından/(satın alınmasından) daxilolmalar, xalis | | 65,864,967 | (52,272,058) |
| Əks repo müqavilələri üzrə qiymətli kağızların satışından/(satın alınmasından) daxilolmalar, xalis | | 31,033,108 | (16,692,791) |
| İnvestisiya qiymətli kağızları və əks repo müqavilələri qiymətli kağızları üzrə alınmış faiz | | 13,596,320 | 15,568,845 |
| Əmlak, tikili və avadanlıqların satın alınması | | (4,468,115) | (4,326,512) |
| Qeyri-maddi aktivlərin satın alınması | | (557,176) | (870,889) |
| **İnvestisiya fəaliyyətindən daxil olan/(istifadə olunan) xalis pul vəsaitləri** | | **105,469,104** | **(58,593,405)** |

# "AZƏRPOÇT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər üzrə daxilolmalar, xalis | 18 | 101,212,319 | 54,747,598 |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər üzrə ödənilmiş faiz | 18 | (2,883,623) | (433,658) |
| Digər borc alınmış vəsaitlərdən daxilolmalar | 17 | - | 2,762,600 |
| Digər borc alınmış vəsaitlərin ödənilməsi | 17 | (2,040,000) | (3,246,021) |
| Digər borc alınmış vəsaitlər üzrə ödənilmiş faiz | 17 | (71,517) | (22,727) |
| İcarə öhdəliyi üzrə əsas məbləğin ödənilməsi | 19 | (377,348) | (298,414) |
| İcarə öhdəliyi üzrə faiz ödənişi | 19 | (31,695) | (39,858) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **95,808,136** | **53,469,520** |
| Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | 123,455 | 836,958 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTMA/(AZALMA) | | 256,329,059 | (90,367,870) |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 13 | 161,182,014 | 251,549,884 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 13 | 417,511,073 | 161,182,014 |

**Rəhbərliyin adından:**

**İsi Mustafayev**
**İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

**Çingiz Qurbanov**
**İdarə Heyətinin üzvü**

30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası

9-56-cı səhifələrdə verilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. CƏMİYYƏT VƏ ONUN FƏALİYYƏTİ

***Korporativ məlumat***

Daha əvvəl Azərpoçt Dövlət Müəssisəsi olan "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti ("Cəmiyyət") Azərbaycan Respublikası Rabitə Nazirliyinin "Poçt rabitəsi sahəsində islahatların davamı və strukturun təkmilləşdirilməsi haqqında" 23 sentyabr 1999-cu il tarixli 151 nömrəli əmri ilə yaradılmış Azərbaycan Respublikasının milli poçt operatorudur. Cəmiyyət "Azərpoçt" İstehsalat Birliyinin bazasında yaradılmışdır və onun hüquqi varisidir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin ("RİTN") 31 avqust 2009-cu il tarixli 145 nömrəli əmri ilə "Azərpoçt" Dövlət Müəssisəsinin təşkilati-hüquqi forması dəyişdirilərək "Azərpoçt" MMC-yə çevrilmişdir. "Azərpoçt" MMC-nin nizamnaməsi Ədliyyə Nazirliyi tərəfindən 15 sentyabr 2009-cu il tarixində təsdiq edilmiş və 9900037711 saylı vergi ödəyicisinin eyniləşdirmə nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır. Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasının Poçt fəaliyyəti haqqında qanunu ilə tənzimlənir.

Cəmiyyətin hüquqi ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000, Üzeyir Hacıbəyov küçəsi 36-dır.

31 dekabr 2024-cü il tarixinə Cəmiyyətin 35 regional poçt filialı, 7 regional rabitə qovşağı və 4 ekspress poçt xidməti, yerli və beynəlxalq miqyasda bağlamaların çatdırılmasını və dövlət orqanlarına xüsusi kuryer xidmətləri təmin edən filialı var. Cəmiyyətdə 31 dekabr 2024-cü il tarixinə 4,300-dən artıq işçi çalışır.

Ənənəvi poçt xidmətlərinə əlavə olaraq zərf və ya bağlamaların göndərilməsi ilə yanaşı, müəssisə gəlir bazasını genişləndirmək və maliyyə effektivliyini artırmaq üçün bir sıra yeni xidmətlər təqdim edir. Bunlara aşağıdakılar daxildir:

1. Təqaüdlər və sosial sığorta ödənişləri, eləcə də dövlət orqanlarından və ya dövlət orqanlarına digər pul daxilolmaları daxil olmaqla ödəniş xidmətləri;
2. Kommunal ödənişlər və bənzər ödənişlər üzrə yığım xidmətləri;
3. Daxili və beynəlxalq pul köçürmələri;
4. Şəhərlərarası zənglər, faks və surətçıxarma xidmətləri üçün telefona çıxışın təmin edilməsi daxil olmaqla biznes xidmətləri;
5. Ənənəvi poçt markalarından başqa, qəzetlər daxil olmaqla satış xidmətləri.

Cəmiyyət Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə təmsil olunmaqla, 100% Azərbaycan dövlətinin mülkiyyətindədir.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT PRİNSİPLƏRİNƏ DAİR MƏLUMAT

**Təqdimatın əsasları**

Cəmiyyətin hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc edilmiş MHBS Mühasibat Uçotu Standartlarına ("MHBS Mühasibat Uçotu Standartları") uyğun şəkildə hazırlanmışdır.

Aşağıdakı mühasibat uçotu siyasətində əksi qeyd edilmədiyi təqdirdə, Cəmiyyətin maliyyə hesabatları tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır. Maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir.

Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, Cəmiyyətin uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin maliyyə hesabatlarının hazırlanması üçün ehtimal və təxminlərin əhəmiyyətli olduğu sahələr 3 saylı Qeyddə açıqlanır.

**Fasiləsizlik prinsipi**

Bu maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Cəmiyyətin ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipi fərziyyəsinin rəhbərlik tərəfindən qiymətləndirilməsi mahiyyət etibarı ilə qeyri-müəyyən olan hadisələrin və ya şərtlərin gələcək nəticələri haqqında müəyyən bir zamanda mühakimə yürütməyi əhatə edir.

**Xarici valyutanın çevrilməsi**

Cəmiyyətin əməliyyat valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin əməliyyat və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatıdır ("AZN"). Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Cəmiyyətin təqdimat valyutası olan AZN ilə əks olunmuşdur.

**Əməliyyatlar və qalıqlar**

Monetar aktivlər və öhdəliklər Azərbaycan Respublikasının Mərkəzi Bankının ("Mərkəzi Bank") müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq Cəmiyyətin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Cəmiyyətin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə tanınır. Borclar ilə bağlı məzənnə fərqlərindən yaranan gəlir və zərər mənfəət və ya zərər haqqında hesabatda "maliyyə gəlirləri və xərcləri" kimi göstərilir. Məzənnə fərqindən yaranan bütün digər gəlir və zərər mənfəət və ya zərər haqqında hesabatda "xarici valyuta mübadiləsi üzrə gəlir çıxılmaqla zərərlər" kimi əks etdirilir. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ilkin əməliyyatlar həyata keçirildiyi tarixə mövcud olan məzənnə ilə çevrilir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnə ilə çevrilir.

Cəmiyyət hazırkı maliyyə hesabatlarının hazırlanmasında aşağıdakı rəsmi valyuta məzənnələrindən istifadə etmişdir:

- 31 dekabr 2024-cü il tarixinə 1 ABŞ dolları 1.7000 AZN təşkil etmişdir (31 dekabr 2023-cü il: 1.7000 AZN);
- 31 dekabr 2024-cü il tarixinə 1 Avro 1.7724 AZN təşkil etmişdir (31 dekabr 2023-cü il: 1.8766 AZN);
- 31 dekabr 2024-cü il tarixinə 1 Rus rublu 0.0163 AZN təşkil etmişdir (31 dekabr 2023-cü il: 0.0188 AZN);
- 31 dekabr 2024-cü il tarixinə 1 Funt sterlinq 2.1382 AZN təşkil etmişdir (31 dekabr 2023-cü il: 2.1643 AZN); və
- 31 dekabr 2024-cü il tarixinə 1 SDR 2.2170 AZN təşkil etmişdir (31 dekabr 2023-cü il: 2.2808 AZN).

**Əsas qiymətləndirmə üsulları**

**Cari və uzunmüddətli təsnifatlar müqayisədə**

Cəmiyyət cari/uzunmüddətli təsnifat meyarları əsasında maliyyə vəziyyəti haqqında hesabatda aktivləri və öhdəlikləri təqdim edir. Cəmiyyət aşağıdakı hallarda aktivləri cari aktiv kimi təsnifləşdirir:

- Cəmiyyətin adi əməliyyat dövründə satılması və ya istifadə olunması üçün saxlanıldıqda və ya realizasiya olunması ehtimal olunduqda;
- Əsasən alqı-satqı məqsədləri üçün saxlanıldıqda;
- Hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- Hesabat tarixindən sonra ən azı on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.

Bütün digər aktivlər uzunmüddətli olaraq təsnif edilir.

Cəmiyyət aşağıdakı hallarda öhdəlikləri cari öhdəlik kimi təsnifləşdirir:

- Cəmiyyətin adi əməliyyat dövründə onların ödənilməsi nəzərdə tutulduqda;
- Əsasən alqı-satqı məqsədləri üçün saxlanıldıqda;
- Hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- Cəmiyyət öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

Cəmiyyət digər bütün öhdəlikləri uzunmüddətli olaraq təsnifləşdirir.

**Əmlak, tikili və avadanlıqlar**

Tikili və avadanlıqlar hər hansı yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, ilkin dəyərdə uçota alınır. Əsas vəsaitlər ilə bağlı sonrakı xərclər müvafiq olaraq aktivin qalıq dəyərində və ya ayrıca aktiv kimi yalnız o halda tanınır ki, həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Cəmiyyətə daxil olması ehtimal edilsin və onun dəyəri etibarlı şəkildə ölçülə bilsin. Kiçik həcmli təmir və gündəlik xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əsas vəsaitlərin əsas hissələrinin və ya komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Aktivin silinməsindən yaranan gəlir və ya zərər silinmədən daxil olan vəsait ilə həmin aktivin qalıq dəyəri arasındakı fərq kimi hesablanır və mənfəət və ya zərərdə aktivin silindiyi ildə tanınır.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əmlak, tikili və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə aktiv üzrə tanınmış dəyərsizləşmə zərəri müvafiq hallarda bərpa edilir.

Amortizasiya müvafiq aktivlərin aşağıda göstərilən amortizasiya dərəcələrinə uyğun olaraq onların təxmini faydalı istifadə müddəti ərzində azalan qalıq metoduna əsasən hesablanır:

| | |
|---|---|
| Binalar və avadanlıqlar | 3-7% |
| Kompüter və avadanlıqlar | 10-25% |
| Mebel və qurğular | 10-25% |
| Nəqliyyat vasitələri | 10-25% |
| Digər | 10-20% |
| İstifadə hüququ olan aktivlər | icarə müddətindən asılıdır |

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra Cəmiyyət tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

**Qeyri-maddi aktivlər**

Cəmiyyətin qeyri-maddi aktivləri müəyyən edilmiş faydalı istifadə müddətinə malik olub, əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir. Qeyri-maddi aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla uçota alınır. Əldə edilmiş proqram təminatı həmin xüsusi proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclər əsasında kapitallaşdırılır. Amortizasiya qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddəti (10 il) ərzində düz xətt metodu ilə mənfəət və ya zərərdə tanınır.

Cəmiyyət tərəfindən nəzarət olunan identifikasiya edilə bilən unikal proqram təminatı ilə birbaşa əlaqəli olan tərtibat xərcləri, çəkilmiş xərclərdən artıq olan əlavə iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktivlər kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən işçilərə sərf olunan xərclər və ümumi təsərrüfat xərclərinin müvafiq hissəsi daxildir. Proqram təminatı ilə əlaqədar bütün digər xərclər (məs., texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir.

**Avans ödənişləri**

Avans ödənişləri dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avans ödənişləri ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edildikdə avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edilir. Aktivlərin əldə olunması üçün ödənilmiş avanslar Cəmiyyət aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin balans dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Cəmiyyətə daxil olacağı ehtimal olunur. Avans ödənişlərinə aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avans ödənişləri mənfəət və zərər hesablarına silinir. Avans ödənişləri ilə bağlı aktivlər, mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avans ödənişlərin balans dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri mənfəət və ya zərər haqqında hesabatda qeydə alınır.

**Mənfəət vergisi**

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında hesabat tarixinin sonuna qüvvədə olan və ya əhəmiyyətli dərəcədə qüvvəyə minmiş qanunvericiliyə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, həmin və ya başqa dövrdə digər məcmu gəlir və ya bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olduğu üçün, digər məcmu gəlir və ya bilavasitə kapital hesablarında qeydə alınması istisna olmaqla, il üzrə mənfəət və zərər hesabatında qeydə alınır.

Cari mənfəət vergisi cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi balans öhdəliyi metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatları məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliklərin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla).

Təxirə salınmış vergi balansı, hesabat tarixinə qüvvədə olan vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərəri o zaman hesablanır ki, bu çıxılmaların realizasiya oluna bilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb ediləcək mənfəətin mövcudluğu ehtimal edilsin.

Təxirə salınmış vergi aktiv və öhdəlikləri cari vergi aktivləri və vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericilikdə nəzərdə tutulan hüquq mövcud olduqda, eləcə də təxirə salınmış vergi aktiv və öhdəlikləri vergiyə cəlb edilən eyni və qalıqları xalis əsasda hesablamaq niyyəti olan ayrı-ayrı şəxslər tərəfindən eyni vergi orqanına ödənilmiş vergiyə aid olduqda və bu zaman hesablaşmaları əvəzləşdirmə yolu ilə aparmaq niyyəti mövcud olduğu halda əvəzləşdirilə bilər.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, tranzitdə olan pul vəsaitləri, ATM-də olan pul vəsaitləri, eləcə də Mərkəzi Bank və digər banklardakı nostro hesablar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınır, çünki:

(i) onlar müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təqdim edir; və
(ii) onlar MZVƏD olaraq təyin edilmir.

**Debitor borcları və digər alınacaq vəsaitlər**

Debitor borcları və digər alınacaq vəsaitlər ilkin olaraq ədalətli dəyərlə tanınır və sonradan effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə uçota alınır.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri ilə mümkün xalis satış dəyəri arasında daha aşağı olan dəyərlə qiymətləndirilir. Mal-material ehtiyatlarının maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Mal-material ehtiyatlarının maya dəyəri onların alış dəyərindən və cari vəziyyətə və yerləşdiyi əraziyə gətirilməsinə çəkilən digər məsrəflərdən ibarətdir. Xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, fəaliyyətin adi gedişində təxmin edilən satış qiymətidir.

**İnvestisiya qiymətli kağızları**

Maliyyə vəziyyəti haqqında hesabatda "investisiya qiymətli kağızları" başlığına aşağıdakılar daxildir:

- amortizasiya olunmuş dəyərdə ölçülən borc investisiya qiymətli kağızları; borc investisiya qiymətli kağızları ilkin olaraq artan birbaşa əməliyyat məsrəflərini əlavə etməklə ədalətli dəyərdə, sonra isə effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə ölçülür.

**Maliyyə alətləri - əsas qiymətləndirmə şərtləri**

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb-satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti modelləri və ya yaxın vaxtlarda həyata keçirilən əməliyyatlara əsaslanan modellər və ya investisiya qoyulan şəxslərin maliyyə məlumatlarının nəzərə alınması kimi qiymətləndirmə üsulları xarici bazar qiymətləri haqqında məlumatın mövcud olmadığı bəzi maliyyə alətlərinin ədalətli dəyərini ölçmək üçün istifadə olunur. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr (əgər varsa) hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

*Amortizasiya olunmuş dəyər (AD)* əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə ehtimal olunan kredit zərərləri ("EOKZ") üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir. Hesablanmış faizlərə ilkin tanınma zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz dərəcəsi metodundan istifadə etməklə ödənilməli məbləğ üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (gələcək kredit zərərləri istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti və ya daha qısa müddət ərzində (əgər uyğundursa) maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Belə mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Cari dəyərin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

**Maliyyə aktivləri – ilkin tanınma**

İlkin tanınma zamanı maliyyə aktivi amortizasiya olunmuş dəyərlə, DMGVƏD və ya MZVƏD ilə qiymətləndirilən kimi təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verirsə və MZVƏD kimi təyin olunmursa, amortizasiya olunmuş dəyərlə ölçülür:

- maliyyə aktivi müqavilə ilə pul vəsaitləri axınını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- maliyyə aktivi üzrə, müqavilənin şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Borc aləti DMGVƏD-də yalnız aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi təyin edilmədikdə ölçülür:

- maliyyə aktivi, müqavilə şərtlərinə uyğun olaraq pul vəsaitləri axınının yığılması və maliyyə aktivlərinin satışı məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə, müqavilənin şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Bütün digər maliyyə alətləri ilkin olaraq əməliyyat xərclərinə uyğunlaşdırılmış ədalətli dəyərlə qeydə alınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı şəkildə əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı mənfəət və ya zərər yalnız ədalətli dəyər və əməliyyat qiyməti arasında eyni alətdə müşahidə edilə bilən digər cari bazar əməliyyatları və ya daxilolmalarına yalnız müşahidə oluna bilən bazarlardan alınan məlumatları daxil edən qiymətləndirmə texnikası ilə sübut edilə bilən fərq olduqda qeydə alınır. İlkin tanınmadan sonra AD ilə ölçülən maliyyə aktivləri üçün EOKZ ehtiyatı tanınır.

**Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi**

Cəmiyyət maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə təsnifləşdirir və qiymətləndirir. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Cəmiyyətin biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Biznes modeli Cəmiyyətin pul vəsaitlərinin hərəkətini yaratmaq üçün aktivləri necə idarə etdiyini əks etdirir. Cəmiyyətin məqsədi yalnız aktivlərdən müqavilə üzrə pul vəsaitlərinin hərəkətini toplamaqdır ("müqavilə üzrə pul vəsaitlərinin hərəkətini toplamaq üçün saxlamaq").

Biznes modelin məqsədi müqavilə üzrə pul axınlarının əldə edilməsi olduqda, Cəmiyyət pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olub-olmadığını (YƏMFÖ təhlili) qiymətləndirir. YƏMFÖ təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir. Hazırda Cəmiyyətin MZVƏD və ya DMGVƏD kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri yoxdur.

**Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi**

Yalnız maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada – biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Cəmiyyət cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və yenidən təsnifləşdirmə həyata keçirməmişdir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi: ehtimal olunan kredit zərərləri üzrə kredit zərəri ehtiyatı**

Cəmiyyət amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri üzrə ehtimal olunan kredit zərərlərini (EOKZ) proqnozlar əsasında qiymətləndirir. Cəmiyyət hər bir hesabat tarixində ehtimal olunan kredit zərərlərini qiymətləndirir və kredit zərərləri üzrə ehtiyatı tanıyır.

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat. Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri ehtimal olunan kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

Cəmiyyət ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi üçün 9 saylı MHBS-də nəzərdə tutulan sadələşdirilmiş yanaşma tətbiq edir. Bu yanaşma bütün debitor borcları üçün ömürlük ehtimal olunan kredit zərərləri ehtiyatından istifadə edir. Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi üçün debitor borcları kredit riskinin ümumi xüsusiyyətlərinə və vaxtı keçmiş günlərin sayına əsasən qruplaşdırılmışdır.

Ehtimal olunan kredit zərərlərinin səviyyəsi müvafiq olaraq 31 dekabr 2024-cü il tarixinə qədər 36 ay ərzində həyata keçirilən satışlar üzrə ödəniş cədvəllərinə və bu dövr ərzində yaranmış əvvəlki dövrün kredit zərərlərinə əsaslanır. Əvvəlki dövrlər üçün kredit zərərlərinin səviyyəsinə müştərilərin debitor borclarını qaytarmaq imkanına təsir edən makroiqtisadi amillərə dair mövcud və gələcək məlumatları nəzərə alaraq düzəliş edilir.

Cəmiyyət aşağıdakılara bərabər məbləğdə zərər ehtiyatı vasitəsilə ehtimal olunan kredit zərərlərini ölçmək məqsədilə investisiya qiymətli kağızları üçün 9 saylı MHBS ümumi yanaşmasını tətbiq edir:

- 12 aylıq ehtimal olunan kredit zərərləri (hesabat tarixindən sonra 12 ay ərzində mümkün olan maliyyə aləti üzrə defolt hadisələri nəticəsində yaranan ehtimal olunan kredit zərərləri);
- və ya tam ömürlük ehtimal olunan kredit zərərləri (maliyyə alətinin istifadə müddəti ərzində bütün mümkün defolt hadisələri nəticəsində yaranan ehtimal olunan kredit zərərləri).

İnvestisiya qiymətli kağızları üçün, əgər həmin investisiyanın kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmışdırsa, tam ömürlük ehtimal olunan kredit zərərləri üzrə zərər ehtiyatı tələb olunur.

İnvestisiya qiymətli kağızları üzrə ehtimal olunan kredit zərərlərinin ölçülməsi üçün müvafiq reytinq agentliklərinin DE və DZYZ dərəcələri istifadə olunur.

**Maliyyə aktivlərinin silinməsi**

Maliyyə aktivlərini bərpa etmək üçün Cəmiyyətin bütün praktiki imkanları tükəndikdə və Cəmiyyət belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir. Cəmiyyət müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (i) aktivlər geri alındıqda və ya bu aktivlərlə bağlı pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (ii) Cəmiyyət həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (iii) Cəmiyyət bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda və həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

**Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi**

Qeyri-müəyyən istifadə müddəti olan və ya istifadəyə hazır olmayan qeyri-maddi aktivlər üzrə amortizasiya hesablanmır və belə aktivlər hər il dəyərsizləşməyə görə təhlil edilir. Amortizasiya hesablanan əsas vəsaitlər və qeyri-maddi aktivlər qalıq dəyərinin bərpa edilə bilmədiyini göstərən hadisə və ya şərait dəyişiklikləri baş verdikdə dəyərsizləşməyə görə təhlil edilir. Dəyərsizləşmə zərəri aktivin qalıq dəyərinin onun bərpa edilə bilən dəyərindən artıq olan məbləğdə tanınır. Aktivin bərpa edilə bilən dəyəri satış üzrə məsrəflər çıxılmaqla onun ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olanıdır.

Dəyərsizləşməni müəyyən etmək üçün aktivlər əhəmiyyətli dərəcədə sərbəst pul vəsaitləri yaradan ən kiçik aktivlər (pul vəsaiti yaradan vahidlər) üzrə qruplaşdırılır. Qeyri-maliyyə aktivlərinin əvvəlki dövrlərdə dəyərsizləşməsinin bərpa olunma ehtimalı hər bir hesabat tarixində təhlil edilir.

**Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları**

Cəmiyyətin maliyyə öhdəlikləri amortizasiya olunmuş dəyərlə ölçülür və maliyyə vəziyyəti haqqında hesabatda göstərilən "kreditor borcları", "müştəri hesabları", "icarə öhdəlikləri" və "digər borc alınmış vəsaitlər"dən ibarətdir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

Cəmiyyət ilə onun əvvəlki kreditorları arasında şərtləri əhəmiyyətli dərəcədə fərqli olan borc alətlərinin mübadiləsi, eləcə də mövcud maliyyə öhdəliklərinin şərtlərinin əhəmiyyətli dərəcədə dəyişdirilməsi ilkin maliyyə öhdəliyinin icrası və yeni maliyyə öhdəliyinin tanınması kimi uçota alınır. Şərtlər o halda əhəmiyyətli dərəcədə dəyişmiş hesab olunur ki, alınmış və ilkin effektiv faiz metodu ilə diskontlaşdırılmış bütün ödənilmiş komissiyalar daxil olmaqla, yeni şərtlərə əsasən nağd pul axınlarının diskontlaşdırılmış cari dəyəri ilkin maliyyə öhdəliyi üzrə qalan nağd pul axınlarının diskontlaşdırılmış cari dəyərindən ən azı 10% fərqlənsin. Borc alətlərinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınarsa, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin icrası üzrə mənfəət və ya zərərdə tanınır. Borc alətinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınmadıqda, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin qalıq dəyərinə düzəliş kimi əks etdirilir və modifikasiya edilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya edilir.

Öhdəliklərin icrası ilə nəticələnməyən dəyişikliklər əvvəlki tarixlə məcmu amortizasiyanın hesablanması metodu ilə təxmini göstəricinin dəyişməsi kimi uçota alınır və bu zaman gəlir və ya zərər qalıq dəyərindəki fərqin iqtisadi mahiyyəti səhmdar ilə kapital əməliyyatlarına aid edilmədiyi təqdirdə mənfəət və ya zərərdə əks etdirilir.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

**Borc alınmış vəsaitlər**

Borc alınmış vəsaitlər ilkin olaraq yaranan əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərdə tanınır və sonradan effektiv faiz metodundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır.

**"Repo" və əks "Repo" müqavilələri**

Xüsusi müqavilələr ("Repo" müqavilələri) əsasında müəyyən gələcək tarixdə yenidən satın almaq üçün satılmış qiymətli kağızların maliyyə vəziyyəti haqqında hesabatda tanınması dayandırılmır, çünki Cəmiyyət mülkiyyət hüququ ilə bağlı risk və faydaların əksəriyyətini özündə saxlayır. Müvafiq alınmış pul vəsaitləri maliyyə vəziyyəti haqqında hesabatda onların geri qaytarılması üzrə müvafiq öhdəliyi daşıyan aktiv kimi tanınır. Geri qaytarılacaq həmin pul vəsaitlərinə əməliyyatın iqtisadi mahiyyətini Cəmiyyətə kredit kimi əks etdirən borc öhdəlikləri daxilində öhdəlik kimi tanınan hesablanmış faiz daxildir. Satış və alış qiymətləri arasındakı fərq faiz xərci kimi uçota alınır və müqavilənin müddəti üzrə EFD-dən istifadə etməklə hesablanır.

Qarşı tərəf qiymətli kağızları satmaq və ya yenidən girov qoymaq hüququna malik olanda Cəmiyyət maliyyə vəziyyəti haqqında hesabatında həmin qiymətli kağızları, müvafiq olaraq, girov kimi qoyulmuş ticarət üçün saxlanılan maliyyə aktivlərinə və ya girov kimi qoyulmuş maliyyə investisiyalarına yenidən təsnif edir.

Ödənilmiş vəsait, o cümlədən hesablanmış faiz, maliyyə vəziyyəti haqqında hesabatda əks "repo" müqavilələri üzrə debitor borclarının tərkibində, əməliyyatın iqtisadi mahiyyətini Cəmiyyətin krediti kimi əks etdirməklə qeydə alınır. Satınalma və satış qiymətləri arasında fərq xalis faiz gəlirində qeydə alınır və müqavilənin müddəti üzrə EFD-dən istifadə etməklə hesablanır.

Yenidən satış müqaviləsi əsasında alınmış qiyməti kağızlar sonradan üçüncü tərəfə satılanda qiymətli kağızların qaytarılması öhdəliyi ticarət üçün saxlanılan maliyyə öhdəliklərinin tərkibində qısa satış kimi qeydə alınır və ədalətli dəyərlə ölçülür, hər hansı gəlir və ya zərərlər isə xalis ticarət gəlirinə daxil edilir.

**İcarə öhdəlikləri**

İcarə müqaviləsi üzrə yaranan öhdəliklər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İcarə öhdəliklərinə aşağıdakı icarə ödənişlərinin xalis cari dəyəri daxildir:

- icarə üzrə alınacaq həvəsləndirici ödənişlər çıxılmaqla, sabit ödənişlər (mahiyyətcə sabit ödənişlər daxil olmaqla);
- ilkin olaraq icarə müddətinin başlanma tarixinə mövcud olan indeks və ya dərəcələrdən istifadə etməklə qiymətləndirilən indeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri;
- zəmanətli son qalıq dəyəri üzrə Cəmiyyət tərəfindən ödənilməsi gözlənilən məbləğlər;
- Cəmiyyət əsaslandırılmış şəkildə əmin olduğu halda alış seçiminin istifadə ediləcəyi qiymət; və
- icarə müddəti ərzində Cəmiyyət icarəni ləğv etmə seçimini istifadə edərsə, icarənin ləğv edilməsi ilə bağlı cərimə ödənişləri.

İcarənin uzadılmasına dair kifayət qədər əminlik olduğu halda, uzadılma seçiminin istifadəsi ilə bağlı aparılacaq icarə ödənişləri də öhdəliyin qiymətləndirilməsinə daxil edilir.

İcarə ödənişləri icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsi ilə diskontlaşdırılır. Bu faiz dərəcəsinin müəyyən edilməsi mümkün olmadıqda (bu, adətən Cəmiyyətin icarə müqavilələri ilə bağlı baş verir), Cəmiyyətin borc kapitalı üzrə artan faiz dərəcəsi istifadə edilir. Borc kapitalı üzrə artan faiz dərəcəsi Cəmiyyətin istifadə hüquqlu aktivin dəyərinə bərabər dəyərdə aktiv əldə etməsi üçün oxşar iqtisadi mühitdə eyni müddət, təminat və şərtlərlə zəruri olan vəsaitlərin cəlb edilməsi zamanı ödəməli olduğu faiz dərəcəsidir.

Borc kapitalı üzrə artan faiz dərəcəsini müəyyən etmək üçün Cəmiyyət:

- mümkün olduqda, üçüncü tərəfdən əldə etdiyi son maliyyələşdirməni ilkin məlumat kimi istifadə edir;
- üçüncü tərəfdən maliyyələşdirmənin əldə edildiyi dövrdən onun şərtlərindəki dəyişiklikləri nəzərə alaraq ona düzəliş edir;
- kredit riskinə uyğun düzəliş edilmiş risksiz faiz dərəcəsindən başlayan toplama yanaşmasından istifadə edir; və
- icarə müqaviləsinin xüsusiyyəltərinə (məs.: icarə müddəti, ölkəsi, valyutası və təminatı) uyğun düzəlişlər edir.

Cəmiyyət qüvvəyə minənə qədər icarə öhdəliyində əks olunmayan indeksdən və ya dərəcədən asılı olan dəyişən icarə ödənişlərinin mümkün artım riskinə məruz qalır. İndeksdən və dərəcədən asılı olan icarə ödənişlərində dəyişikliklər qüvvəyə mindikdə, icarə öhdəliyi istifadə hüququ olan aktivin dəyərinə düzəliş etməklə yenidən qiymətləndirilir.

İcarə ödənişləri əsas və maliyyə xərclərinə ayrılır. Maliyyə xərcləri hər bir dövr üçün öhdəliyin qalığı üzrə daimi olaraq müntəzəm faiz dərəcəsini təmin etmək üçün ümumi icarə müddətində mənfəət və ya zərərdə tanınır.

Avadanlıq və nəqliyyat vasitələrinin qısamüddətli icarəsi və bütün azdəyərli aktivlərin icarəsi üzrə ödənişlər düz xətt metoduna əsasən mənfəət və zərərdə xərc kimi tanınır. Qısamüddətli icarələrə 12 ay və ya daha az müddəti əhatə edən icarələr aiddir.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı hesablanır və ilkin olaraq ədalətli dəyərdə sonra isə effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə qeydə alınır.

**Nizamnamə kapitalı və digər ehtiyatlar**

Nizamnamə kapitalı yalnız Cəmiyyətin adi səhmlərindən ibarətdir. Yeni səhmlərin emissiyası ilə birbaşa əlaqəli olan əlavə xərclər kapitalda daxilolmaların azalması kimi (vergi çıxılmaqla) göstərilir. Azərbaycan Respublikası Hökuməti Cəmiyyətin əməliyyatlarını kapital qoyuluşları şəklində maliyyələşdirə bilər ki, bu da ödəniş tarixində Cəmiyyətin kapitalda dəyişikliklər haqqında hesabatında ədalətli dəyərdə tanınacaq.

**Gəlirlərin tanınması**

15 saylı MHBS müştərilərlə bağlanmış müqavilər üzrə gəlirləri hesablamaq üçün beş addımlı bir model təqdim edir. 15 saylı MHBS-yə uyğun olaraq beş addımlı model aşağıdakı kimidir:

- 1-ci addım: Müştərilərlə bağlanmış müqaviləni müəyyən etmək;
- 2-ci addım: Müqavilə öhdəliklərini müəyyən etmək;
- 3-cü addım: Əməliyyat qiymətini müəyyən etmək;
- 4-cü addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
- 5-ci addım: Müəssisə müqavilə üzrə öhdəliyi yerinə yetirirsə müvafiq gəlirin tanınması.

Müştərilərlə müqavilələrdən əldə edilən gəlir, Cəmiyyətin mal və xidmətlərin müştəriyə ötürülməsi üzrə öhdəliyi yerinə yetirən kimi və ya yerinə yetirdikdən sonra tanınır. Gəlir müştəri ilə müqavilədə nəzərdə tutulan məbləğdən, endirim, imtiyaz və vergilər çıxmaqla ölçülür.

Gəlirlər Cəmiyyətin gündəlik fəaliyyəti nəticəsində yaranır. Gəlir sövdələşmə qiyməti məbləğində tanınır. Əməliyyat qiyməti vəd verilmiş mallar və ya xidmətlər üzrə nəzarətin alıcıya ötürülməsi müqabilində üçüncü tərəflərin adından alınan məbləğlər istisna olmaqla, Cəmiyyət tərəfindən əldə ediləcəyi gözlənilən ödənişlərdir.

*Malların satışı.* Satışlar mallar üzərində nəzarət ötürüldükdə yəni, mallar alıcıya çatdırıldıqda, mallar alıcının tam sərəncamında olduqda və malların alıcı tərəfindən qəbul edilməsinə təsir göstərə biləcək yerinə yetirilməmiş öhdəlik olmadıqda tanınır. Mallar müəyyən yerə çatdırıldıqda, köhnəlmə və zərər riski alıcıya keçdikdə və alıcı müqaviləyə uyğun olaraq malları qəbul etdikdə və malların qəbul edilməsinə dair müddəaların qüvvədə olma müddəti başa çatdıqda və ya Cəmiyyət malların qəbul edilməsinə dair bütün meyarların yerinə yetirilməsinə dair obyektiv dəlillərə malik olduqda, mallar çatdırılmış hesab edilir.

Satışlar bazar təcrübəsinə uyğun olaraq avans ödənişi əsasında və ya 30 günlük kredit müddəti ilə həyata keçirildiyinə görə hər hansı maliyyələşdirmə elementi mövcud deyil.

Debitor borcu mallar təchiz edildikdə tanınır. Bu zaman, ödəniş müddətinin başlanması yalnız ödənişdən əvvəl tələb olunduğuna görə ödəniş məcburi hesab edilir.

*Xidmətlərin satışı.* Xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər xidmətlərin göstərildiyi hesabat dövründə tanınır. Gəlirlər müştəri tərəfindən xidmətlərin eyni zamanda qəbul edilməsi və istifadəsinə görə hesabat dövrünün sonuna qədər faktiki göstərilmiş xidmətlər əsasında tanınır.

Ödənişlərin məbləği göstərilmiş xidmətlərin dəyərindən artıq olduqda, müqavilə üzrə öhdəlik tanınır.

**Əməliyyat xərcləri**

Əməliyyat xərcləri poçt idarəsi işçilərinin əmək haqları, poçt avadanlıqlarının saxlanması, təchizat və s. kimi Cəmiyyətin fəaliyyəti ilə birbaşa əlaqəli olan xərclərdən ibarətdir və belə xərclər yarandığı zaman tanınır.

**Əlavə dəyər vergisi**

Satışdan hesablanan əlavə dəyər vergisi aşağıdakılardan daha tez baş verən əməliyyatın tarixində vergi orqanlarına ödənilir: (a) alıcılar tərəfindən borclar ödənildikdə və ya (b) maliyyə xidmətləri və beynəlxalq poçt xidmətləri istisna olmaqla mal və ya xidmətlər alıcılara təqdim olunduqda. Ümumiyyətlə, əvəzləşdirilən ƏDV vergi hesab fakturaları təqdim olunduqdan sonra ƏDV məbləği ilə əvəzləşdirilə bilər. Vergi orqanları ƏDV-nin xalis məbləğdə ödənilməsinə icazə verir. Debitor borcların dəyərsizləşməsi üzrə ehtiyat yaradıldıqda, dəyərsizləşmə üzrə zərər debitor borcun ƏDV-si daxil olmaqla ümumi məbləğində qeydə alınır.

**Maliyyə gəlirləri və xərcləri**

Maliyyə xərcləri borc alınmış vəsaitlər üzrə faiz xərclərindən və icarə öhdəlikləri üzrə faiz xərclərindən ibarətdir.

Kvalifikasiya olunan aktivlərin əldə olunması, tikintisi və ya istehsalı ilə birbaşa əlaqəli olmayan borc alınmış vəsaitlər üzrə xərclər effektiv faiz metoduna əsasən mənfəət və zərərdə tanınır. Xarici valyutanın çevrilməsi üzrə gəlir və zərərlər xarici valyuta hərəkətlərinin xalis gəlir və ya zərər mövqeyində olmasından asılı olaraq, xalis maliyyə gəliri və ya maliyyə xərci kimi göstərilir.

**İşçi heyəti ilə bağlı ödənişlər**

Əməkhaqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır. Cəmiyyətin yerli qanunvericiliklə müəyyən edilmiş haqlar üzrə ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

**Öhdəliklər və xərclər üzrə ehtiyatlar**

Öhdəliklər və xərclər üzrə ehtiyatlara qeyri-müəyyən müddətə və ya məbləğə malik olan qeyri-maliyyə öhdəlikləri daxildir. Cəmiyyət keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəliklərə malik olduqda, həmin öhdəliklərin yerinə yetirilməsi üçün Cəmiyyət tərəfindən iqtisadi resursların sərf olunması ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə ehtiyatlar hesablanır.

Ehtiyatlar vergidən əvvəlki faiz dərəcəsindən istifadə etməklə, öhdəliyin yerinə yetirilməsi üçün zəruri olan xərclərin cari dəyəri ilə qiymətləndirilir. Vergidən əvvəlki faiz dərəcəsi pulun zaman dəyəri üzrə cari bazar qiymətlərini və öhdəliklərə xas olan riskləri əks etdirir. Vaxtın keçməsinə görə ehtiyatlardakı artım faiz xərcləri kimi tanınır.

**Hökumət qrantları**

Hökumət qrantları onların alınması və bütün əlavə edilmiş şərtlərə əməl olunmasına dair əsaslı təminat olduqda tanınır və müvafiq olaraq birbaşa kapital və ya gəlir kimi göstərilir.

**Şərti öhdəliklər**

Şərti öhdəliklər, öhdəliyin yerinə yetirilməsi üçün resursların kənara axınının tələb olunacağı ehtimal edilmədikdə və etibarlı qiymətləndirmə aparıldıqda, maliyyə hesabatlarında tanınmır. Şərti aktiv maliyyə hesabatlarında tanınmır, lakin iqtisadi səmərənin daxil olması ehtimal edildikdə maliyyə hesabatlarında açıqlanır.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verilməsini tələb edir.

Nəticədə biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində maliyyə hesabatlarında bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar maliyyə hesabatları hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Cəmiyyətin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Cəmiyyət tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli qiymətləndirmələrə əmlak və avadanlıqların amortizasiya olunan ömrü, qeyri-maliyyə və maliyyə aktivlərinin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri və köhnəlmiş mal-material ehtiyatları, vergi və qanuni təəhhüdlər və təxirə salınmış vergitutma aiddir. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Cəmiyyətin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə ən əhəmiyyətli təsiri olan daxil edilən təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

***Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti***

Cəmiyyət hər maliyyə ilinin sonunda əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin qalan faydalı istifadə müddətlərini qiymətləndirir. Əgər gözləntilər əvvəlki təxminlərdən fərqlidirsə, dəyişikliklər "Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar" adlı 8 saylı MBUS-a müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin balans dəyərlərinin məbləğləri və mənfəət və zərərdə tanınmış amortizasiya üzrə əhəmiyyətli təsirləri olur.

***EOKZ-nin ölçülməsi***

EOKZ-nin ölçülməsi metodologiyanın, modelin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirdən mühüm bir təxmindir. EOKZ ölçülməsi üzrə metodologiya 31 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri üzrə ehtiyata əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı ("DE"), defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ") və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makroiqtisadi ssenari modelləri. Cəmiyyət müntəzəm olaraq ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir.

***Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi***

Cəmiyyətin bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Cəmiyyət mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarında istifadə olunan məlumatlara əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir.

- *1-ci Səviyyə* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- *2-ci Səviyyə* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci Səviyyədə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
- *3-cü Səviyyə* – aktiv və ya öhdəlik üçün müşahidə edilə bilməyən bazar məlumatlarına əsaslanmayan daxilolmalar.

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən məlumatlar, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnif edilir.

***Mal-material ehtiyatlarının qiymətləndirilməsi***

Mal-material ehtiyatları ən aşağı dəyər və ya mümkün xalis satış dəyəri ilə qiymətləndirilir. Cəmiyyət, köhnəlmiş və az istifadə edilən mal-material ehtiyatlarının balans dəyərini, lazım gəldikdə, mümkün olan xalis satış dəyərinə endirmək üçün ehtiyat ayırır. Bu cür ehtiyatların satışından əldə edilən faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; hər hansı bir fərq gələcək əməliyyat nəticələrinə əhəmiyyətli təsir göstərə bilər.

***Əvəzləşdirilə bilən ƏDV***

Hər hesabat tarixində Cəmiyyət mal və xidmətlərin satın alınması zamanı yaranan əvəzləşdirilə bilən ƏDV-ni qiymətləndirir. Cəmiyyət bu məbləğləri yalnız gələcəkdə ƏDV öhdəliyinə qarşı əvəzləşdirmə və ya vergi orqanlarından toplama hesabına əldə edə bilər. ƏDV debitor borcunun əvəzləşdirilə biləcəyini qiymətləndirərkən, Cəmiyyət daxili vergi idarəsindən proqnozlaşdırılan ƏDV öhdəliyi, dövlət vergi orqanları ilə yazışmalar və tarixi bərpa təcrübəsi ilə bağlı məlumatları nəzərə alır.

ƏDV-nin əvəzləşdirilməsinin faktiki məbləği Cəmiyyətin təxminlərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər və bu, əməliyyat nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

***Cari vergilər***

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunverciliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticədə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Cəmiyyətə əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər.

***Təxirə salınmış mənfəət vergisi aktivinin tanınması***

Tanınmış təxirə salınmış mənfəət vergisi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivi müvafiq vergi faydasının realizasiya oluna biləcəyi zaman qeydə alınır. Bu, gələcəkdə bərpa edilməsi gözlənilən müvəqqəti fərqlərdən və çıxılmaların istifadə edilməsi üçün gələcəkdə kifayət qədər vergiyə cəlb edilən mənfəətin mövcudluğundan asılıdır. Vergiyə cəlb olunan gələcək mənfəətin və gələcəkdə yaranması ehtimal edilən vergi faydası məbləğinin müəyyən edilməsi rəhbərlik tərəfindən hazırlanmış ortamüddətli biznes planına və onun ekstrapolyasiya nəticələrinə əsaslanır. Biznes plan rəhbərliyin şəraitə adekvat olan təxminlərinə əsaslanır.

***İcarə öhdəliklərinin qiymətləndirilməsi və istifadə hüququ olan aktivlər***

16 saylı MHBS-nin tətbiqi icarə öhdəlikləri və istifadə hüququ olan aktivlərə dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Cəmiyyət yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

## 4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN TƏTBİQİ

Cari ildə Cəmiyyət Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2024-cü il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

MUBSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-in tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **"Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi"ni (16 saylı MHBS-yə edilən Düzəlişlər) düzəlişlərlə birgə dərc etmişdir. Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS – yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir.

**1 saylı MUBS-a düzəlişlər: Öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsi –** 2020-ci ilin yanvar və 2022-ci ilin oktyabr aylarında MUBSŞ öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə dair tələbləri müəyyən etmək üçün 1 saylı MUBS-un 69-76-cı bəndlərinə düzəlişlər dərc etmişdir. Düzəlişlər aşağıdakı məsələlər üzrə məlumat təqdim edir:

- Ödənişin təxirə salınması hüququ dedikdə nəzərdə tutulan müddəalar;
- Hesabat dövrünün sonunda təxirəsalma hüququ mövcud olmalıdır;
- Müəssisənin təxirəsalma hüququndan istifadə etmə ehtimalı təsnifata heç bir təsir göstərmir;
- Yalnız konvertasiya edilə bilən öhdəliyə daxil edilmiş törəmə alətin özü kapital aləti olduqda, öhdəliyin şərtləri onun təsnifatına təsir etmir.

Əlavə olaraq, kredit sazişindən yaranan öhdəlik uzunmüddətli olaraq təsnif olunduqda və müəssisənin ödənişi təxirə salmaq hüququ on iki ay ərzində gələcək müqavilələrə riayət olunmasından asılı olduqda, açıqlama tələb edilməsi üçün tələb irəli sürülür.

2023-cü ilin may ayında MUBSŞ **"Təchizatçının maliyyələşdirilməsi üzrə razılaşmalar"**ı dərc etmişdir **(7 saylı MUBS və 7 saylı MHBS-yə edilmiş düzəliş)** – Bu düzəlişlər təchizatçının maliyyə razılaşmalarının şəffaflığının artırılması və onların müəssisənin öhdəliklərinə, pul vəsaitlərinin hərəkətinə və likvidlik riskinə məruz qalmasına təsiri barəsində açıqlamalar tələb edir. Açıqlama tələbləri, bəzi şirkətlərin təchizat üzrə maliyyə razılaşmalarının kifayət qədər nəzərə çarpmamasının səhmdarların təhlilinə maneə törətməsi üzrə səhmdarların narahatlığına MUBSŞ-nin verdiyi cavabdır.

Əksi qeyd olunmadığı halda, yeni standartlar Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət qüvvəyə mindiyi təqdirdə bu yeni və düzəliş edilmiş standartlar və şərhləri qəbul etməyi nəzərdə tutur.

2023-cü ilin avqust ayında MUBSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə cəmiyyətin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" adlı 21 saylı MUBS-a düzəliş dərc etmişdir.** Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir. Düzəlişlər, erkən tətbiqetmə seçimi mövcud olmaqla, 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

30 may 2024-cü il tarixində MBUSŞ maliyyə alətlərinin təsnifatı və qiymətləndirilməsi ilə bağlı **9 saylı MHBS "Maliyyə Alətləri" və 7 saylı MHBS "Maliyyə Alətləri: Məlumatların Açıqlanması"na** düzəlişlər dərc etmişdir. Əsas dəyişikliklərə aşağıdakılar daxildir:

- Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması: müəyyən edilmiş meyarlara əsasən elektron köçürmə yolu ilə ödənilmiş borcların, ödəniş tarixindən əvvəl yerinə yetirilmiş öhdəliklər hesab edilməsinə imkan verir.
- Maliyyə aktivlərinin təsnifatı: əsas icarə müqavilələrinin şərtlərinin qiymətləndirilməsi üçün tövsiyələr verir, tələb əsaslı olmayan xüsusiyyətləri dəqiqləşdirir və müqavilə ilə əlaqəli alətlərin xüsusiyyətlərinə aydınlıq gətirir.
- Açıqlamalar: DMGVƏD vasitəsilə ədalətli dəyərdə ölçülən kapital investisiyaları və pul vəsaitlərinin hərəkətinə təsir edən şərti öhdəliklər üçün yeni tələblər müəyyən edir.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan hesabat dövrlərinə şamil edilir, həm retrospektiv, həm də erkən tətbiqinə icazə verilir.

18 iyul 2024-cü il tarixində MBUSŞ **"MHBS Mühasibat Uçotu Standartlarının İllik Təkmilləşdirilməsi – 11-ci Cild"**i dərc etmişdir.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

- 1 saylı MHBS: Standartları ilk dəfə tətbiq edən müəssisələr üçün hecinq uçotu ilə bağlı izahlar;
- 7 saylı MHBS: Tanınmanın dayandırılması zamanı gəlir və ya zərərlərin tanınması ilə bağlı tövsiyələr;
- 7 saylı MHBS: Ədalətli dəyər və əməliyyat dəyəri arasında təxirə salınmış fərqlər üzrə təkmilləşdirilmiş açıqlamalar;
- 7 saylı MHBS: Təqdimat və kredit riskinin açıqlanmasına dair təkmilləşdirmələr;
- 9 saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahlar;
- 9 saylı MHBS: Əməliyyat dəyərinin müəyyən olunmasına dair əlavə təlimat;
- 10 saylı MHBS: "De-fakto agent"inin müəyyən olunması üzrə açıqlamalar;
- 7 saylı BAS: Xərc metodu ilə əlaqədar təkmilləşdirmələr.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur.

9 aprel 2024-cü il tarixində MBUSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq **"Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması" adlı 18 saylı MHBS** yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də "əməliyyat mənfəət və ya zərəri" ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə yardım edəcək. 18 saylı MHBS-yə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- Mənfəət və ya zərər hesabatının strukturu;
- Müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət tədbirləri); və
- Ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı MUBS-u əvəz edəcək; 1 saylı MUBS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin "əməliyyat mənfəəti və ya zərər" hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 1 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında MBUSŞ tərəfindən 19 saylı **"İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması"** adlı yeni standartı dərc edilmişdir, bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olmalı;
- ictimai hesabatlılığı olmamalıdır; və
- onun birbaşa və ya hər hansı vasitəçi ana müəssisəsi MHBS Uçot Standartlarına uyğun olan konsolidə edilmiş maliyyə hesabatlarını hazırlamalıdır.

Yeni standart 1 yanvar 2027-ci il tarixinə və ya ondan sonrakı hesabat dövrlərinə şamil olunur, erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Dayanıqlılıq Standartları Şurası (BDSŞ) 26 iyun 2023-cü il tarixində **MHBS S1 "Dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının açıqlanması üzrə ümumi tələblər"** və **MHBS S2 "İqlim ilə əlaqədar açıqlamalar"** adlı ilk iki MHBS Dayanıqlılığın Açıqlanması Standartlarını dərc etmişdir. Standartlar müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı əhəmiyyətli məlumatların açıqlanması üçün tələblərdən ibarətdir, bu məlumatlar investorlar tərəfindən müəssisənin dəyərləndirilməsi zamanı əhəmiyyətli hesab olunur.

MHBS S1 müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı məlumatların açıqlanması üzrə ümumi tələbləri müəyyən edir. MHBS S1 müəssisə tərəfindən dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının hazırlanması və təqdim olunması qaydalarını nəzərdə tutur. Standart açıqlamaların məzmunu və təqdimatı ilə bağlı ümumi tələbləri əks etdirir, standarta əsasən açıqlanan məlumat müəssisə üçün ehtiyat təmin edən maliyyə hesabatının ilkin istifadəçiləri üçün faydalı olmalıdır.

MHBS S2 ümumi məqsədli maliyyə hesabatlarının ilkin istifadəçiləri üçün faydalı hesab olunan iqlim ilə əlaqədar risk və imkanlar haqqında məlumatların müəyyən olunması, qiymətləndirilməsi və açıqlanması üçün tələbləri müəyyən edir.

Hər iki standart 1 yanvar 2024-cü il tarixindən etibarən başlayan hesabat dövrlərinə şamil olunur. Standartların erkən tətbiqinə icazə verilir. Müəssisə MHBS S1 standartını daha erkən tətbiq etdiyi halda, həmin standartı müvafiq şəkildə açıqlamalı və eyni zamanda MHBS S2 standartını tətbiq etməlidir. BDSŞ standartlarının məcburi tətbiqi həmin standartların müvafiq qanunvericilik tərəfindən qəbul edilməsindən asılıdır. Bu, müəssisələrin standartları könüllü şəkildə (əlavə olaraq) tətbiq etmə bacarığına heç bir təsir göstərmir.

**"Konsolidə edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı MBUS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı MBUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidə edilmiş əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidə edilmiş assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi MBUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların və şərhlərin Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR VƏ QALIQLAR

Əlaqəli tərəflər "Əlaqəli Tərəflərlə bağlı Qeydlər" adlı 24 saylı MBUS-da müəyyən edilir. Tərəflər, ümumiyyətlə, bir tərəf digər tərəfə nəzarət etdikdə, ümumi nəzarəti altında olduqda və ya maliyyə və əməliyyat qərarlarının qəbulunda digər tərəfə əhəmiyyətli təsir göstərdikdə və ya birgə nəzarət olduqda əlaqəli tərəf hesab olunur. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Cəmiyyətin birbaşa əsas və son nəzarət edən tərəfi Azərbaycan Hökumətidir.

Cəmiyyət hökumətlə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə bağlı "Əlaqəli Tərəflərlə bağlı Qeydlər" adlı 24 saylı MBUS-un 25-ci bəndində nəzərdə tutulmuş azadolmanı tətbiq etmişdir.

Hesabat verən müəssisə əlaqəli tərəflərlə əməliyyatlar və ödənilməmiş qalıqlar, o cümlədən aşağıdakı öhdəliklər ilə bağlı "Əlaqəli Tərəflərlə bağlı Qeydlər" adlı 24 saylı MBUS-un 18-ci bəndinin açıqlama tələblərindən azaddır:

(a) hesabat verən müəssisə üzərində nəzarəti və ya birgə nəzarəti və ya əhəmiyyətli təsiri olan hökumət; və
(b) eyni hökumətin həm hesabat verən müəssisə, həm də digər müəssisə üzərində nəzarəti və ya birgə nəzarəti və ya əhəmiyyətli təsiri olduğu üçün əlaqəli tərəf olan digər müəssisə.

Dövlət qurumları ilə əməliyyatların xarakterinə elektrik enerjisinin, qazın, benzinin alınması və digər xidmətlərin alınması daxildir.

Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir.

***Əsas idarəedici heyətə ödənişlər***

Cəmiyyətin əsas idarəedici heyətinə İdarə Heyətinin sədri, İdarə Heyəti sədrinin vəzifəsini müvəqqəti icra edən şəxs, İdarə Heyətinin üzvləri və Maliyyə departamentinin direktoru daxildir. Əsas idarəedici heyətin üzvləri təsdiqlənmiş əməkhaqqı cədvəlinə uyğun olaraq əməkhaqqı və mükafatlar almaq hüququna malikdirlər. 2024-cü il ərzində əsas idarəedici heyətə ödənişlər 1,317,532 AZN təşkil etmişdir (2023-cü il: 990,496 AZN).

31 dekabr 2024-cü il tarixində əlaqəli tərəflərlə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | **Ümumi nəzarət altında olan müəssisələr** |
|---|---|
| İnvestisiya qiymətli kağızlarının ümumi məbləği | 233,321,926 |
| İnvestisiya qiymətli kağızları üzrə EOKZ | (473,244) |
| Debitor borcları və digər alınacaq vəsaitlərin ümumi məbləği | 3,727,154 |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə EOKZ | (29,780) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 211,030 |
| Digər borc alınmış vəsaitlər | 8,160,000 |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 156,877,199 |
| Müştəri hesabları | 268,137,586 |

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə əlaqəli tərəflərlə olan gəlir və xərc maddələri aşağıdakı kimi olmuşdur:

| | **Ümumi nəzarət altında olan müəssisələr** |
|---|---|
| Digər xidmətlərdən əldə olunan gəlir | 6,538,831 |
| Göstərilmiş xidmətlərdən əldə olunan gəlir | 503,961 |
| Materiallar, istehlak materialları və xidmətlərin satın alınması | 1,438,618 |
| İnvestisiya qiymətli kağızlarından əldə olunan gəlir | 16,131,927 |
| Əks repo müqavilələri əsasında alınacaq vəsaitlər üzrə faiz gəliri | 407,830 |
| Əks repo müqavilələri əsasında borc alınmış vəsaitlər üzrə faiz xərci | 3,775,115 |

31 dekabr 2023-cü il tarixində əlaqəli tərəflərlə qalıqlar aşağıdakı kimi olmuşdur:

| | **Ümumi nəzarət altında olan müəssisələr** |
|---|---|
| İnvestisiya qiymətli kağızlarının ümumi məbləği | 303,524,382 |
| Əks repo müqavilələri üzrə alınacaq vəsaitlər | 31,033,108 |
| İnvestisiya qiymətli kağızları üzrə EOKZ | (672,383) |
| Debitor borcları və digər alınacaq vəsaitlərin ümumi məbləği | 2,968,663 |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə EOKZ | (59,765) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 167,329 |
| Digər borc alınmış vəsaitlər | 10,200,000 |
| Ədalətli dəyərin tanınması üzrə yaranan kapital elementi | (1,636,743) |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 54,773,388 |
| Müştəri hesabları | 242,562,808 |

31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə əlaqəli tərəflərlə olan gəlir və xərc maddələri aşağıdakı kimi olmuşdur:

| | **Ümumi nəzarət altında olan qurumlar** |
|---|---|
| Digər xidmətlərdən əldə olunan gəlir | 8,379,279 |
| Göstərilmiş xidmətlərdən əldə olunan gəlir | 1,415,477 |
| Materiallar, istehlak materialları və xidmətlərin satın alınması | 1,331,432 |
| İnvestisiya qiymətli kağızlarından əldə olunan gəlir | 15,046,118 |
| Əks repo müqavilələri əsasında alınacaq vəsaitlər üzrə faiz gəliri | 1,552,802 |
| Əks repo müqavilələri əsasında borc alınmış vəsaitlər üzrə faiz xərci | 459,448 |

31 dekabr 2023-cü il tarixində başa çatmış il ərzində xalis balans dəyəri 138,132 AZN olan əmlak və avadanlıqlar dövlətdən ödənişsiz şəkildə təqdim edilmiş və xalis balans dəyəri 72,696 AZN olan əmlak və avadanlıqlar dövlətə ödənişsiz şəkildə verilmişdir.

## 7. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR

Əmlak, tikili və avadanlıqların balans dəyərindəki hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | Binalar və avadanlıqlar | Kompüter və avadanlıqlar | Mebel/ qurğular | Nəqliyyat vasitələri | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | | | |
| **1 yanvar 2023-cü il** | **58,088,095** | **18,955,712** | **7,779,912** | **7,694,054** | **155,647** | **92,673,420** |
| Əlavələr | 423,285 | 2,182,395 | 199,235 | 1,589,732 | - | 4,394,647 |
| Silinmələr | (129,019) | (925) | - | (32,718) | - | (162,662) |
| **31 dekabr 2023-cü il** | **58,382,361** | **21,137,182** | **7,979,147** | **9,251,068** | **155,647** | **96,905,405** |
| Əlavələr | 2,657,704 | 562,208 | 1,330 | 1,645,185 | - | 4,866,427 |
| Silinmələr | (650) | (81,623) | (42,869) | - | (340) | (125,482) |
| **31 dekabr 2024-cü il** | **61,039,415** | **21,617,767** | **7,937,608** | **10,896,253** | **155,307** | **101,646,350** |
| **Hesablanmış amortizasiya** | | | | | | |
| **1 yanvar 2023-cü il** | **(27,330,030)** | **(15,480,982)** | **(6,722,560)** | **(5,829,088)** | **(130,488)** | **(55,493,148)** |
| İl üzrə tutulmalar | (2,171,167) | (964,501) | (242,304) | (597,591) | (3,652) | (3,979,215) |
| Dəyərsizləşmə zərəri | (138,621) | - | - | - | - | (138,621) |
| Silinmələr üzrə ləğv edilmiş | 56,323 | 841 | - | 29,337 | - | 86,501 |
| **31 dekabr 2023-cü il** | **(29,583,495)** | **(16,444,642)** | **(6,964,864)** | **(6,397,342)** | **(134,140)** | **(59,524,483)** |
| İl üzrə tutulmalar | (2,164,421) | (1,133,392) | (213,028) | (776,668) | (2,948) | (4,290,457) |
| Silinmələr üzrə ləğv edilmiş | 630 | 76,198 | 40,504 | - | 240 | 117,572 |
| **31 dekabr 2024-cü il** | **(31,747,286)** | **(17,501,836)** | **(7,137,388)** | **(7,174,010)** | **(136,848)** | **(63,697,368)** |
| **Xalis qalıq dəyəri:** | | | | | | |
| **31 dekabr 2024-cü il** | **29,292,129** | **4,115,931** | **800,220** | **3,722,243** | **18,459** | **37,948,982** |
| **31 dekabr 2023-cü il** | **28,798,866** | **4,692,540** | **1,014,283** | **2,853,726** | **21,507** | **37,380,922** |

## 8. İSTİFADƏ HÜQUQU OLAN AKTİVLƏR

| | Binalar | Cəmi |
|---|---|---|
| **1 yanvar 2023-cü il tarixinə balans dəyəri** | **624,297** | **624,297** |
| Əlavələr | 147,838 | 147,838 |
| Silinmələr | (80,260) | (80,260) |
| Köhnəlmə xərci | (300,446) | (300,446) |
| **31 dekabr 2023-cü il tarixinə balans dəyəri** | **391,429** | **391,429** |
| Əlavələr | 190,514 | 190,514 |
| Silinmələr | (22,503) | (22,503) |
| Köhnəlmə xərci | (362,373) | (362,373) |
| **31 dekabr 2024-cü il tarixinə balans dəyəri** | **197,067** | **197,067** |

## 9. QEYRİ-MADDİ AKTİVLƏR

| | Qeyri-maddi aktivlər |
|---|---|
| **İlkin dəyər** | |
| **1 yanvar 2023-cü il** | **4,515,444** |
| Əlavələr | 870,889 |
| **31 dekabr 2023-cü il** | **5,386,333** |
| Əlavələr | 557,176 |
| **31 dekabr 2024-cü il** | **5,943,509** |
| **Hesablanmış amortizasiya** | |
| **1 yanvar 2023-cü il** | **(3,911,145)** |
| Amortizasiya xərci | (113,767) |
| **31 dekabr 2023-cü il** | **(4,024,912)** |
| Amortizasiya xərci | (377,524) |
| **31 dekabr 2024-cü il** | **(4,402,436)** |
| **Xalis qalıq dəyəri:** | |
| **31 dekabr 2024-cü il** | **1,541,073** |
| **31 dekabr 2023-cü il** | **1,361,421** |

31 dekabr 2024-cü və 2023-cü il tarixlərində qeyri-maddi aktivlər əsasən Cəmiyyətin maliyyə uçotu sisteminin təkmilləşdirilməsi və proqram təminatı lisenziyalarından ibarət olmuşdur.

## 10. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR ÜZRƏ AVANS ÖDƏNİŞLƏRİ

31 dekabr 2024-cü il tarixinə təchizatçılara əmlak, tikili və avadanlıqlar üzrə heç bir avans ödənişləri olmamışdır (31 dekabr 2023-cü il: 398,312 AZN).

## 11. İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə Cəmiyyətin investisiya qiymətli kağızları aşağıdakı kimidir:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Amortizasiya olunmuş dəyərdə qiymətləndirilən investisiya qiymətli kağızları:** | | |
| Azərbaycan hökuməti tərəfindən buraxılmış notlar | 233,321,926 | 303,524,382 |
| Amerika Birləşmiş Ştatları tərəfindən buraxılmış notlar | 57,038,887 | 5,118,941 |
| Türkiyə hökuməti tərəfindən buraxılmış notlar | 10,336,305 | 48,142,489 |
| Ukrayna hökuməti tərəfindən buraxılmış notlar | 5,173,371 | 9,588,672 |
| **Çıxılsın: Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat** | **(5,665,160)** | **(11,353,216)** |
| **Xalis investisiya qiymətli kağızları** | **300,205,329** | **355,021,268** |

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində Cəmiyyətin dövlət qiymətli kağızlarına 1.70%-dən 10.70%-ə qədər nominal faiz dərəcəsi ilə 1 ildən 10 ilə qədər müddətə qoyulmuş investisiyaları var (31 dekabr 2023-cü il: 1.70%-dən 10%-ə qədər).

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Amortizasiya olunmuş dəyərlə qiymətləndirilən investisiya qiymətli kağızları:** | | |
| Aaa | 57,038,887 | 5,118,941 |
| Ba1 | 233,321,926 | 303,524,382 |
| B1 | 10,336,305 | - |
| B3 | - | 48,142,489 |
| Caa3 | 5,173,371 | 9,588,672 |
| **Çıxılsın: Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat** | **(5,665,160)** | **(11,353,216)** |
| **Xalis investisiya qiymətli kağızları** | **300,205,329** | **355,021,268** |

Ukrayna hökumətinə investisiyadan başqa bütün reytinqlər "Moody's" reytinq sisteminə əsaslanır.

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində investisiya qiymətli kağızları üzrə faiz gəliri və investisiya qiymətli kağızlarının satışından əldə edilən gəlir 22,964,763 AZN (31 dekabr 2023-cü il: 22,228,361 AZN) təşkil etmişdir.

EOKZ-nin ölçülməsi məqsədləri üçün, rəhbərliyin mülahizəsinə əsasən 3-cü Mərhələdə nəzərdən keçirilən Ukrayna hökumətinə investisiya istisna olmaqla, investisiya qiymətli kağızları 1-ci Mərhələyə daxil edilir.

Aşağıdakı cədvəl illik dövrün əvvəli və sonu arasında ümumi EOKZ modelinə əsasən investisiya qiymətli kağızları üzrə kredit zərəri ehtiyatında dəyişiklikləri izah edir:

| | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| **1 yanvar tarixinə investisiya qiymətli kağızları üzrə ehtiyat** | **(11,353,216)** | **(7,554,125)** |
| İl ərzində mənfəət və ya zərərdə tanınan ehtimal olunan kredit zərərinin geri qaytarılması/(tutulması) | 1,272,755 | (3,799,091) |
| Silinmələr | 4,415,301 | - |
| **İl ərzində cəmi kredit zərəri ehtiyatı üzrə azalma/(artma)** | **5,688,056** | **(3,799,091)** |
| **31 dekabr tarixinə investisiya qiymətli kağızları üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat** | **(5,665,160)** | **(11,353,216)** |

## 12. MƏNFƏƏT VERGİSİ

Cəmiyyət cari mənfəət vergisi ödəmələrini və vergi bazalarını Cəmiyyətin fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq aktiv və öhdəliklərdə dəyərləndirir və əks etdirir və bu hesablamalar MHBS Mühasibat Uçotu Standartlarından fərqlənir.

Bəzi xərclərin vergi bazasının hesablanması zamanı nəzərə alınmaması və bəzi gəlirlərin vergiyə tabe tutulmaması nəticəsində Cəmiyyətin daimi vergi fərqləri yaranır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin balans dəyəri ilə onların vergi hesabatındakı dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsi, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan fərqlər nəticəsində yaranır.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi xüsusilə fərqli şərhlərə və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, vergi qanunvericiliyinə dair rəhbərliyin şərhi vergi orqanlarının şərhindən fərqlənə biləcəyi üçün, sövdələşmələrə vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Cəmiyyətə maliyyə hesabatları üçün əhəmiyyətli olacaq əlavə vergilər, cərimələr və faizlər təyin oluna bilər.

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə yaranan müvəqqəti fərqlər aşağıda göstərilmişdir:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | | |
| İnvestisiya qiymətli kağızları | 5,665,160 | 11,353,216 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 3,945,008 | 4,971,666 |
| Əmlak, tikili və avadanlıqlar | 3,854,215 | 3,677,099 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 385,224 | - |
| Qeyri-maddi aktivlər | 369,045 | 208,646 |
| İcarə öhdəliyi | 204,998 | 415,407 |
| Uzunmüddətli aktivlər üzrə avans ödənişləri | - | 59,158 |
| **Cəmi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **14,423,650** | **20,685,192** |
| **Vergi bazasını artıran müvəqqəti fərqlər:** | | |
| Digər borc alınmış vəsaitlər | (1,079,199) | (1,636,743) |
| Pul vəsaitləri və onların ekvivalentləri | (405,429) | - |
| İstifadə hüququ olan aktivlər | (197,067) | (391,429) |
| Mal-material ehtiyatları | (66,713) | (109,000) |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | (26,486) | - |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | - | (20,315) |
| **Cəmi vergi bazasını artıran müvəqqəti fərqlər** | **(1,774,894)** | **(2,157,487)** |
| Xalis vergi bazasını azaldan müvəqqəti fərqlər | 12,648,756 | 18,527,705 |
| Qanunla təyin edilmiş vergi dərəcəsi ilə xalis təxirə salınmış vergi aktivi (20%) | 2,529,751 | 3,705,541 |
| Qiymətləndirmə üzrə ehtiyat | (1,566,377) | (2,758,490) |
| **Xalis təxirə salınmış mənfəət vergisi aktivi** | **963,374** | **947,051** |

31 dekabr 2024-cü və 2023-cü il tarixlərində başa çatmış il üzrə vergi xərcləri ilə mühasibat uçotu mənfəəti arasındakı əlaqə belə izah olunur:

| | **31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **5,982,598** | **5,850,839** |
| Çıxılsın sadələşdirilmiş vergiyə cəlb olunan əməliyyatın nəticəsi | (1,040,133) | (849,569) |
| **Mənfəət vergisinə cəlb olunan xalis mənfəət** | **4,942,465** | **5,001,270** |
| Qanunla təyin edilmiş vergi dərəcəsi | 20% | 20% |
| **Qanunla təyin edilmiş vergi dərəcəsi ilə nəzəri mənfəət vergisi xərci** | **(988,493)** | **(1,000,254)** |
| Qiymətləndirmə üzrə ehtiyatda dəyişiklik | 309,053 | (216,727) |
| Daimi fərqlərin vergi təsiri | (269,896) | 482,020 |
| Ötən ilin mənfəət vergisi hesablamasına düzəliş | - | 431,025 |
| **Məcmu gəlir haqqında hesabatda təqdim edilən cəmi mənfəət vergisi xərci** | **(949,336)** | **(303,936)** |

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində investisiya qiymətli kağızları və qiymətləndirmə üzrə ehtiyatlar ilə əlaqədar 883,060 AZN məbləğində təxirə salınmış vergi aktivi silinmişdir.

MHBS Mühasibat Uçotu Standartları və qanunla təyin edilmiş vergi tənzimləmələri arasındakı fərqlər, maliyyə hesabatı məqsədləri üzrə aktivlərin və öhdəliklərin balans dəyəri ilə vergi bazaları arasında müvəqqəti fərqlərə səbəb olur.

| | **31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (965,659) | (1,129,790) |
| Təxirə salınmış mənfəət vergisi aktivində dəyişiklik | 16,323 | 825,854 |
| **Mənfəət vergisi xərci** | **(949,336)** | **(303,936)** |

| | **2024-cü il** | **2023-cü il** |
|---|---|---|
| **Təxirə salınmış mənfəət vergisi aktivi** | | |
| **İlin əvvəlinə** | **947,051** | **448,546** |
| Digər ehtiyatlarda göstərilən dövr üzrə təxirə salınmış mənfəət vergisi aktivində dəyişiklik | - | (327,349) |
| Mənfəət və zərər hesablarında göstərilən dövr üzrə təxirə salınmış mənfəət vergisi aktivində dəyişiklik | 16,323 | 825,854 |
| **İlin sonuna** | **963,374** | **947,051** |

## 13. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Nağd pul vəsaitləri | 20,838,491 | 31,837,472 |
| ARMB-də nağd pul qalıqları | 26,962,358 | 8,464,545 |
| Digər banklardakı müxbir hesablar | 364,138,596 | 110,882,264 |
| ATM-də olan pul vəsaitləri | 5,571,628 | 9,985,203 |
| Tranzitdə olan pul vəsaitləri | - | 12,530 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **417,511,073** | **161,182,014** |

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentləri üzrə qalıqlar 1-ci Mərhələyə aid edilmişdir. Bu qalıqlar üzrə ehtimal olunan kredit zərərlərinin məbləği əhəmiyyətli olmadığına görə Cəmiyyət pul vəsaitləri və onların ekvivalentləri üzrə kredit zərərləri üçün ehtiyat yaratmamışdır. Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi yanaşması 31 saylı Qeyddə göstərilir.

## 14. DEBİTOR BORCLARI VƏ DİGƏR ALINACAQ VƏSAİTLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Debitor borcları | 10,659,094 | 14,119,679 |
| "Millikart" MMC ilə hesablaşmalar | 13,089 | 292,113 |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (2,996,445) | (4,394,175) |
| **Debitor borcları və digər alınacaq vəsaitlər üzrə cəmi maliyyə aktivləri, xalis** | **7,675,738** | **10,017,617** |
| "Azərlotoreya" ASC ilə hesablaşmalar | 3,618,433 | 2,775,750 |
| Əvəzləşdirilə bilən ƏDV | 1,212,407 | 1,054,771 |
| Avans ödənişləri | 271,655 | 344,380 |
| Digər alınacaq vəsaitlər | 125,682 | 719,501 |
| **Cəmi alınacaq qeyri-maliyyə vəsaitləri** | **5,228,177** | **4,894,402** |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər, xalis** | **12,903,915** | **14,912,019** |

31 dekabr 2024-cü il tarixinə EOKZ ehtiyatları çıxılmaqla, 5,712,927 AZN məbləğində debitor borcları xarici valyutada ifadə edilmişdir (31 dekabr 2023-cü il: 9,137,716 AZN).

Əvəzləşdirilə bilən ƏDV balans tarixinə ödənilməyən alışlar üzrə hesablanır. Əvəzləşdirilə bilən ƏDV xidmətlərin dəyəri ödənildikdən sonra satışdan yaranan ƏDV öhdəliyi ilə əvəzləşdirilir.

Cəmiyyət ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi üçün 9 saylı MHBS-də nəzərdə tutulan sadələşdirilmiş yanaşma tətbiq edir. Bu yanaşma bütün debitor borcları və digər alınacaq vəsaitlər üçün ömürlük ehtimal olunan kredit zərərləri ehtiyatını istifadə edir.

Ehtimal olunan kredit zərərlərini ölçmək üçün debitor borcları və digər alınacaq vəsaitlər ümumi kredit riski xüsusiyyətlərinə və vaxtı keçmiş günlərə əsasən qruplaşdırılmışdır.

Ehtimal olunan kredit zərərlərinin səviyyəsi müvafiq olaraq 31 dekabr 2024-cü il tarixinə qədər 36 ay ərzində həyata keçirilən satışlar üzrə ödəniş cədvəllərinə və bu dövr ərzində yaranmış əvvəlki dövrün kredit zərərlərinə əsaslanır.

Müştərilərin müqavilə üzrə öhdəliklərinin qısamüddətli olması və düzəlişlərin təsirinin əhəmiyyətsiz olmasına görə Cəmiyyət makroiqtisadi amillərə dair mövcud və gələcək məlumatlara əsasən əvvəlki dövrlər üzrə kredit zərərlərinin səviyyəsinə düzəliş etməmişdir.

Debitor borcları və digər alınacaq vəsaitlər üzrə kredit zərəri ehtiyatı aşağıdakı ehtiyat cədvəlinə uyğun olaraq müəyyən edilir. Ehtiyat cədvəli aktivin gecikdirildiyi günlərin sayına əsaslanır:

| *Ümumi dəyərin %-i nisbətində* | 31 dekabr 2024-cü il | | | 31 dekabr 2023-cü il | | |
|---|---|---|---|---|---|---|
| | **Ümumi balans dəyəri** | **Ömürlük EOKZ** | **Xalis balans dəyəri** | **Ümumi balans dəyəri** | **Ömürlük EOKZ** | **Xalis balans dəyəri** |
| ***Debitor borcları*** | | | | | | |
| Cari | 5,565,253 | (33,313) | 5,531,940 | 8,219,143 | (47,562) | 8,171,581 |
| 30 gündən az gecikmiş | 1,262,794 | (91,450) | 1,171,344 | 961,852 | (81,506) | 880,346 |
| 30-90 gün gecikdirilmiş | 523,120 | (136,882) | 386,238 | 515,512 | (110,311) | 405,201 |
| 91-180 gün gecikdirilmiş | 662,502 | (376,875) | 285,627 | 511,506 | (319,276) | 192,230 |
| 181-360 gün gecikdirilmiş | 770,742 | (470,153) | 300,589 | 944,255 | (575,996) | 368,259 |
| 360 gündən çox gecikdirilmiş | 1,887,772 | (1,887,772) | - | 3,259,524 | (3,259,524) | - |
| **Cəmi** | **10,672,183** | **(2,996,445)** | **7,675,738** | **14,411,792** | **(4,394,175)** | **10,017,617** |

Hesabat dövrünün əvvəli və sonu arasındakı müddətdə sadələşdirilmiş EOKZ modelinə əsasən debitor borcları və digər alınacaq vəsaitlər üzrə kredit zərərləri üçün ehtiyatda dəyişikliklər aşağıdakı cədvəldə göstərilir:

| | **2024-cü il** | **2023-cü il** |
|---|---|---|
| **1 yanvar tarixinə debitor borcları üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat** | **(4,394,175)** | **(2,734,172)** |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərlərinin geri qaytarılması/(ehtimal olunan kredit zərərləri) | 1,397,730 | (1,660,003) |
| **İl üzrə mənfəət və ya zərərdə cəmi kredit zərəri üzrə ehtiyatın geri qaytarılması/(tutulması)** | **1,397,730** | **(1,660,003)** |
| **31 dekabr tarixinə debitor borcları üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat** | **(2,996,445)** | **(4,394,175)** |

## 15. MAL-MATERİAL EHTİYATLARI

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| Təkrar satış üçün nəzərdə tutulan mallar | 612,650 | 791,233 |
| Materiallar və istehlak materialları | 1,423,228 | 1,242,946 |
| **Cəmi mal-material ehtiyatları** | **2,035,878** | **2,034,179** |

## 16. DİGƏR AKTİVLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| ƏDV depozit hesabı | 170,249 | 113,520 |
| Xatirə pul nişanları | 52,882 | 52,882 |
| **Cəmi digər aktivlər** | **223,131** | **166,402** |

## 17. DİGƏR BORC ALINMIŞ VƏSAİTLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Müddətli kreditlər | 7,080,801 | 8,563,257 |
| **Cəmi digər borc alınmış vəsaitlər** | **7,080,801** | **8,563,257** |

Cəmiyyətin digər borc alınmış vəsaitləri Azərbaycan Respublikası Maliyyə Nazirliyindən alınmış illik 0.75% və son ödəniş tarixi 30 dekabr 2028-ci il olan borc alınmış vəsaitlərdən ibarətdir.

Borc alınmış vəsait bazar dərəcəsindən aşağı faiz dərəcəsi ilə təqdim edildiyindən Cəmiyyət borc alınmış vəsaitin ilkin tanınma zamanı ədalətli dəyərini ölçmək üçün diskontlaşdırılmış pul vəsaitlərinin hərəkətinə əsaslanan qiymətləndirmə metodologiyasından istifadə etmişdir. Borc alınmış vəsait Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (bir növ səhmdar kimi) tərəfindən verildiyi üçün dəyişiklikdən əldə edilən gəlir digər ehtiyatlarda kapital elementi kimi tanınmışdır.

Cəmiyyət borc alınmış vəsaitin ədalətli dəyəri ilə onun vergi bazası arasındakı müvəqqəti fərqə görə təxirə salınmış vergini tanımaq qərarına gəlmişdir.

Borc alınmış vəsaitlərin cari və uzunmüddətli hissəsi aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Cari hissə | 1,945,215 | 1,944,805 |
| Uzunmüddətli hissə | 5,135,586 | 6,618,452 |
| **Cəmi digər borc alınmış vəsaitlər** | **7,080,801** | **8,563,257** |

**Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərin üzləşdirilməsi**

Təqdim olunan hər bir dövr üzrə Cəmiyyətin maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərin təhlili və bu öhdəliklərdə dəyişikliklər aşağıdakı cədvəldə göstərilir. Bu öhdəliklər pul vəsaitlərinin hərəkəti haqqında hesabatda maliyyələşdirmə fəaliyyətinin tərkibində qeydə alınır:

| | Cari hissə | Uzunmüddətli hissə | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2024-cü il** | **1,944,805** | **6,618,452** | **8,563,257** |
| **Pul vəsaitlərinin hərəkəti** | | | |
| Ödənilmiş əsas məbləğ | (2,040,000) | - | (2,040,000) |
| Ödənilmiş faiz | (71,517) | - | (71,517) |
| **Nağdsız dəyişikliklər** | | | |
| Müddətli ödəniş | 1,482,866 | (1,482,866) | - |
| Faiz xərci | 629,061 | - | 629,061 |
| **31 dekabr 2024-cü il** | **1,945,215** | **5,135,586** | **7,080,801** |

| | Cari hissə | Uzunmüddətli hissə | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2023-cü il** | - | **10,618,321** | **10,618,321** |
| **Pul vəsaitlərinin hərəkəti** | | | |
| Daxilolmalar | 2,762,600 | - | 2,762,600 |
| Ödənilmiş əsas məbləğ | (3,246,021) | - | (3,246,021) |
| Ödənilmiş faiz | (22,727) | - | (22,727) |
| **Nağdsız dəyişikliklər** | | | |
| Müddətli ödəniş | 2,363,126 | (2,363,126) | - |
| Ədalətli dəyərin tanınması üzrə yaranan kapital elementi | - | (1,636,743) | (1,636,743) |
| Faiz xərci | 22,727 | - | 22,727 |
| Xarici valyuta mübadiləsi üzrə üzrə zərər | 65,100 | - | 65,100 |
| **31 dekabr 2023-cü il** | **1,944,805** | **6,618,452** | **8,563,257** |

## 18. REPO MÜQAVİLƏLƏRİ ƏSASINDA BORC ALINMIŞ VƏSAİTLƏR

Repo müqavilələri əsasında borc alınmış vəsaitlər aşağıdakı əməliyyatlardan ibarətdir:

| | Effektiv faiz dərəcəsi | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 2024: 3.39% - 10.05%<br>2023: 3.55% - 6.65% | 156,877,199 | 54,773,388 |
| **Repo müqavilələri əsasında borc alınmış vəsaitlər** | | **156,877,199** | **54,773,388** |

İlin əvvəlinə və ilin sonuna olan repo müqavilələri əsasında borc alınmış vəsaitlərin məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıdakı kimi göstərilir:

| | Cari hissə | Uzunmüddətli hissə | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2024-cü il** | **54,773,388** | **-** | **54,773,388** |
| **Pul vəsaitlərinin hərəkəti** | | | |
| Daxilolmalar | 1,278,549,422 | - | 1,278,549,422 |
| Ödənilmiş əsas məbləğ | (1,177,337,103) | - | (1,177,337,103) |
| Ödənilmiş faiz | (2,883,623) | - | (2,883,623) |
| **Nağdsız dəyişikliklər** | | | |
| Faiz xərci | 3,775,115 | - | 3,775,115 |
| **31 dekabr 2024-cü il** | **156,877,199** | **-** | **156,877,199** |

| | Cari hissə | Uzunmüddətli hissə | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2023-cü il** | - | - | - |
| **Pul vəsaitlərinin hərəkəti** | | | |
| Daxilolmalar | 138,895,146 | - | 138,895,146 |
| Ödənilmiş əsas məbləğ | (84,147,548) | - | (84,147,548) |
| Ödənilmiş faiz | (433,658) | - | (433,658) |
| **Nağdsız dəyişikliklər** | | - | |
| Faiz xərci | 459,448 | - | 459,448 |
| **31 dekabr 2023-cü il** | **54,773,388** | **-** | **54,773,388** |

## 19. İCARƏ ÖHDƏLİKLƏRİ

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| İcarə öhdəlikləri (cari) | 141,851 | 338,462 |
| İcarə öhdəlikləri (uzunmüddətli) | 63,147 | 76,945 |
| **Cəmi icarə öhdəlikləri** | **204,998** | **415,407** |

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə xalis minimal icarə ödənişlərinin cari dəyəri aşağıdakı kimi olmuşdur:

| | Minimal icarə ödənişi müddəti | | |
|---|---|---|---|
| | 1 il ərzində | 1 ildən 5 ilə kimi | Cəmi |
| İcarə ödənişləri | 150,188 | 68,605 | 218,793 |
| Maliyyə xərcləri | (8,337) | (5,458) | (13,795) |
| **31 dekabr 2024-cü il tarixinə xalis cari dəyər** | **141,851** | **63,147** | **204,998** |

| | Minimal icarə ödənişi müddəti | | |
|---|---|---|---|
| | **1 il ərzində** | **1 ildən 5 ilə kimi** | **Cəmi** |
| İcarə ödənişləri | 357,001 | 85,059 | 442,060 |
| Maliyyə xərcləri | (18,539) | (8,114) | (26,653) |
| **31 dekabr 2023-cü il tarixinə xalis cari dəyər** | **338,462** | **76,945** | **415,407** |

İlin əvvalinə və ilin sonuna olan icarə öhdəliklərinin məbləğlərinin maliyyələşdirmə fəaliyyətindən müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirilməsi aşağıdakı kimi göstərilir:

| | Cari hissə | Uzunmüddətli hissə | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2024-cü il** | **338,462** | **76,945** | **415,407** |
| **Pul vəsaitlərinin hərəkəti** | | | |
| Ödənilmiş icarə | (409,043) | - | (409,043) |
| **Nağdsız dəyişikliklər** | | | |
| Müddətli ödəniş | 204,312 | (204,312) | - |
| Əlavələr | - | 190,514 | 190,514 |
| Silinmələr | (23,575) | - | (23,575) |
| Faiz xərci | 31,695 | - | 31,695 |
| **31 dekabr 2024-cü il** | **141,851** | **63,147** | **204,998** |

| | Cari hissə | Uzunmüddətli hissə | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2023-cü il** | **321,985** | **327,782** | **649,767** |
| **Pul vəsaitlərinin hərəkəti** | | | |
| Ödənilmiş icarə | (338,272) | - | (338,272) |
| **Nağdsız dəyişikliklər** | | | |
| Müddətli ödəniş | 398,675 | (398,675) | - |
| Əlavələr | - | 147,838 | 147,838 |
| Silinmələr | (83,784) | - | (83,784) |
| Faiz xərci | 39,858 | - | 39,858 |
| **31 dekabr 2023-cü il** | **338,462** | **76,945** | **415,407** |

## 20. KREDİTOR BORCLARI VƏ DİGƏR ÖDƏNİLƏCƏK VƏSAİTLƏR

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| SmartPay ilə hesablaşmalar | 10,639,553 | - |
| Hesablaşma üzrə vəsaitlər | 7,306,094 | 7,152,369 |
| Kreditor borcları | 2,203,152 | 5,119,552 |
| Kommunal xidmət təchizatçılarına ödəniləcək məbləğ | 3,457,463 | 2,217,314 |
| Digər ödəniləcək vəsaitlər | 687,754 | 212,335 |
| **Kreditor borcları və digər ödəniləcək vəsaitlər üzrə cəmi maliyyə ödənişləri** | **24,294,016** | **14,701,570** |
| Alınmış avanslar | 458,663 | 293,559 |
| Ödəniləcək mənfəət vergisi | 303,479 | 1,141,512 |
| **Cəmi kreditor borcları və digər ödəniləcək vəsaitlər** | **25,056,158** | **16,136,641** |

## 21. MÜŞTƏRİ HESABLARI

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Dövlət və ictimai təşkilatlar** | | |
| Cari/hesablaşma hesabları | 412,291,274 | 324,433,684 |
| **Digər hüquqi şəxslər** | | |
| Cari/hesablaşma hesabları | 109,745,789 | 143,160,762 |
| **Fiziki şəxslər** | | |
| Cari/tələb hesabları | 321,381 | 426,026 |
| **Cəmi müştəri hesabları** | **522,358,444** | **468,020,472** |

## 22. NİZAMNAMƏ KAPİTALI

Cəmiyyətin qeydə alınmış nizamnamə kapitalı 31 dekabr 2024-cü il tarixinə 73,357,719 AZN (31 dekabr 2023-cü il: 73,357,719 AZN) təşkil edir.

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə Cəmiyyətin mülkiyyət quruluşu aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 100% | 100% |
| **Cəmi** | **100%** | **100%** |

## 23. KATEQORİYALAR ÜZRƏ GƏLİRİN TƏHLİLİ

Cəmiyyət, aşağıdakı əsas məhsul növləri üzrə müəyyən zaman çərçivəsində mal və xidmətlərin təqdim olunmasından gəlir əldə edir:

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Poçt xidmətləri üzrə əldə olunan gəlir | 22,810,022 | 22,644,088 |
| Maliyyə xidmətləri üzrə əldə olunan gəlir | 14,523,365 | 14,769,027 |
| Digər xidmətlər üzrə əldə olunan gəlir | 12,237,206 | 9,621,895 |
| **Müştərilərlə müqavilələrdən əldə olunan cəmi gəlir** | **49,570,593** | **47,035,010** |

Poçt xidmətləri və maliyyə xidmətləri üzrə gəlir və əsas məhsul və xidmət növləri üzrə digər xidmətlər aşağıdakılardır:

**Poçt xidmətləri üzrə əldə olunan gəlir:**

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Poçt markalarının satışı | 6,554,275 | 7,075,780 |
| Beynəlxalq poçt mübadiləsi xidmətləri | 4,323,190 | 3,971,717 |
| Paketlər | 3,981,384 | 3,426,217 |
| Ekspress poçt xidmətləri | 1,878,459 | 1,864,435 |
| Xüsusi rabitə və kuryer xidmətləri | 1,647,949 | 1,720,871 |
| Gömrük rəsmiləşdirilməsi üzrə beynəlxalq poçt göndərişlərinin yerinə yetirilməsi haqqı | 1,521,623 | 1,184,880 |
| Beynəlxalq kiçik paketlər | 1,493,447 | 1,799,776 |
| Teleqraf xidmətləri üzrə xidmət haqları | 591,565 | 591,415 |
| Poçt karqo xidmətləri | 107,778 | 90,717 |
| Markalı zərflərdə zərflərin satışı | 100,479 | 216,595 |
| Qiymətli məktublar və zərflər | 85,560 | 57,081 |
| Kuryer xidmətləri | 14,943 | 16,198 |
| Poçt xidmətlərindən əldə edilən digər gəlirlər | 509,370 | 628,406 |
| **Poçt xidmətləri üzrə əldə olunan cəmi gəlir** | **22,810,022** | **22,644,088** |

**Maliyyə xidmətləri üzrə əldə olunan gəlir:**

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Xarici valyuta əməliyyatlarından əldə edilən gəlir | 6,126,280 | 5,836,202 |
| Plastik kartlarla edilən nağd əməliyyatlardan əldə edilən gəlir | 3,687,637 | 3,235,502 |
| Beynəlxalq pul köçürmələri üzrə ödənişlər | 2,135,683 | 2,930,265 |
| Daxili pul köçürmələri üzrə haqlar | 1,560,590 | 1,922,417 |
| Cari hesablara pul köçürmələri üzrə ödənişlər | 741,658 | 546,138 |
| Plastik kartların satışı | 169,233 | 230,259 |
| Valyuta mübadiləsi üzrə komissiya | 58,374 | 23,375 |
| Cari hesablardan nağd pul vəsaitlərinin çıxarışı haqqı | 38,389 | 36,348 |
| Maliyyə xidmətləri üzrə əldə edilən digər gəlirlər | 5,521 | 8,521 |
| **Maliyyə xidmətləri üzrə əldə olunan cəmi gəlir** | **14,523,365** | **14,769,027** |

**Digər xidmətlər üzrə əldə olunan gəlir:**

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| SmartPay xidmətləri üzrə komissiya haqqı | 4,534,016 | - |
| Vergi ödənişlərinin qəbzi | 1,954,365 | 1,630,056 |
| Kommunal xidmətlər üzrə komissiya (qaz) | 1,602,355 | 2,512,707 |
| Lotereya satışı üzrə komissiya | 1,015,013 | 881,690 |
| Kommunal xidmətlər üzrə komissiya (elektrik) | 669,736 | 1,449,605 |
| Mətbuat satışı, abunəliyi və çatdırılması üzrə əldə olunan gəlir | 489,103 | 519,750 |
| Yerli telefon abunəliyi üzrə komissiya | 391,628 | 448,860 |
| Kommunal xidmət üzrə komissiya (su) | 280,831 | 331,356 |
| Dövlət Yol Polisi tərəfindən cərimələrin toplanması | 189,330 | 211,156 |
| Bələdiyyənin büdcə ödənişlərinin toplanması | 167,360 | 176,486 |
| Şəhərlərarası zənglər üzrə komissiya | 159,029 | 226,502 |
| Sığorta xidmətləri | 84,808 | 53,775 |
| Televiziya və internet abunəliyi üzrə komissiya | 80,896 | 444,080 |
| Abunə haqqı | 55,414 | 74,704 |
| İcarə gəliri | 51,039 | 81,259 |
| Dövlət Gömrük Komitəsi tərəfindən büdcə ödənişlərinin toplanması | 28,288 | 66,781 |
| Digər xidmətlər üzrə digər gəlirlər | 483,995 | 513,128 |
| **Digər xidmətlər üzrə əldə olunan cəmi gəlir** | **12,237,206** | **9,621,895** |

## 24. ƏMƏLİYYAT XƏRCLƏRİ

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| İşçi heyəti ilə bağlı xərclər | 25,993,682 | 21,455,483 |
| Plastik kartlarla hesablaşmalar | 3,809,819 | 2,904,992 |
| Subpodratçılar tərəfindən təmin olunmuş xidmətlər | 2,991,368 | - |
| Daşınma və çatdırılma xərcləri | 2,434,551 | 3,500,164 |
| Materiallar və təchizatlar | 1,462,146 | 1,042,203 |
| Yanacaq xərcləri | 677,258 | 604,444 |
| Dilinq əməliyyatları üzrə zərər | 440,981 | 288,695 |
| Poçt markalarının satın alınması | 311,807 | 302,344 |
| Məlumat emalı xərcləri | 166,850 | 192,865 |
| Ödəniş kartlarının dəyəri | 108,065 | 145,050 |
| Digər | 246,055 | 219,795 |
| **Cəmi əməliyyat xərcləri** | **38,642,582** | **30,656,035** |

## 25. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| İşçi heyəti ilə bağlı xərclər | 15,343,836 | 14,801,128 |
| Təmir və istismar xərcləri | 3,307,027 | 2,403,689 |
| Mənfəət vergisindən başqa digər vergilər | 2,124,602 | 2,070,526 |
| Mühafizə xərcləri | 1,664,872 | 1,533,208 |
| Peşəkar xidmətlər | 1,183,333 | 2,261,348 |
| Üzvlük haqları | 984,645 | 693,887 |
| Ezamiyyə xərcləri | 699,183 | 347,208 |
| Kommunal xərclər | 657,769 | 677,522 |
| Rabitə xərcləri | 510,157 | 679,208 |
| Bank komissiyaları | 339,799 | 447,095 |
| Reklam və marketinq xərcləri | 232,382 | 314,579 |
| Dəftərxana xərcləri | 152,785 | 190,378 |
| İcarə xərcləri | 10,166 | 27,091 |
| Digər | 159,924 | 164,574 |
| **Cəmi ümumi və inzibati xərclər** | **27,370,480** | **26,611,441** |

## 26. DİGƏR GƏLİRLƏR

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Hökumət qrantı | 1,291,403 | 1,000,000 |
| **Cəmi digər gəlirlər** | **1,291,403** | **1,000,000** |

## 27. MALİYYƏ XƏRCLƏRİ

| | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər üzrə faiz xərcləri | 3,775,115 | 459,448 |
| Digər borc alınmış vəsaitlər üzrə faiz xərci | 629,061 | 22,727 |
| İcarə öhdəlikləri üzrə faiz xərci | 31,695 | 39,858 |
| **Cəmi maliyyə xərcləri** | **4,435,871** | **522,033** |

## 28. TƏƏHHÜDLƏR, ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

### Şərti öhdəliklər

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə Cəmiyyət tərəfindən heç bir maliyyə zəmanəti verilməmişdir. Eyni zamanda hesabat tarixinə Cəmiyyətin kapital xərcləri ilə bağlı öhdəlikləri olmamışdır.

### Təəhhüdlər

### Sığorta

Cəmiyyət öz əmlakı və əməliyyatları ilə əlaqədar bədbəxt hadisələrin baş verməsi nəticəsində mülki və ətraf mühitə ziyanın dəyməsi ilə əlaqədar bina və avadanlıqları, fəaliyyətin dayanması və ya üçüncü tərəf qarşısında öhdəliklərini tam sığortalamamışdır. Cəmiyyət adekvat sığorta təminatı əldə edənə qədər müəyyən aktivlərə zərər dəyməsi və ya məhv edilməsinin əməliyyatlar və maliyyə vəziyyəti üzərində əhəmiyyətli dərəcədə əks təsirə malik olması riski öz aktuallığını saxlayır.

### Məhkəmə prosesləri

Adi fəaliyyət gedişində vaxtaşırı olaraq Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Cəmiyyətin rəhbərliyi öz təxminlərinə əsasən hesab edir ki, bu iddialar ilə bağlı əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq 31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə hazırkı maliyyə hesabatlarında bu iddialarla bağlı ehtiyat yaradılmamışdır.

*Məhkəmə işləri*

Azərbaycan Respublikasının Mərkəzi Bankı 22 aprel 2024-cü il tarixindən 20 iyun 2024-cü il tarixinədək Cəmiyyətdə yoxlamalar aparmışdır (2 aprel 2022-ci il tarixindən 31 mart 2024-cü il tarixinədək olan dövrü əhatə etməklə). Yoxlamalar nəticəsində cinayət yolu ilə əldə edilmiş vəsaitlərin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı qanunvericiliyin müəyyən müddəaları ilə uyğunsuzluqlar aşkar edilmişdir. Bu səbəbdən, 16 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Cəmiyyətə qarşı məhkəmə araşdırması başladılmışdır. Məhkəmənin yekun qərarına əsasən, Cəmiyyət hüquqi öhdəliklərini yerinə yetirmiş və 18 aprel 2025-ci il tarixində 50,000 (əlli min) AZN məbləğində inzibati cəza ödəmişdir.

**Şərti vergi öhdəlikləri**

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatları və fəaliyyəti ilə bağlı belə qanunvericiliyə dair rəhbərliyin mövqeyinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər. Bunun nəticəsində Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi yoxlamaları yoxlamanın keçirildiyi il də daxil olmaqla, vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyətini əhatə edə bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Cəmiyyətin rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrük qanunvericiliyi ilə bağlı Cəmiyyətin mövqeləri dəyişilməyəcəkdir. Müvafiq olaraq, 31 dekabr 2024-cü il tarixinə mümkün vergi öhdəlikləri üzrə hər hansı ehtiyat qeydə alınmamışdır (31 dekabr 2023-cü il: mümkün vergi öhdəlikləri üzrə ehtiyat qeydə alınmamışdır).

**Əməliyyat mühiti**

Cəmiyyət fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir. Cəmiyyət inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Qlobal təchizat zəncirinin pozulması, Rusiya Federasiyası və Ukrayna arasındakı münaqişə, eləcə də əmtəə malları üzrə artan istehlak tələbi əmtəə mallarının artan qiymətləri də daxil olmaqla 2022-ci ildə qlobal iqtisadiyyata əhəmiyyətli inflyasiya təzyiqlərinin yaranması ilə nəticələnmişdir. Rusiyadan ixrac olunan xam neftin Avropa İttifaqından kənar bazarlara çıxarılması və qlobal xam neft tələblərinə dair gözləntilərin aşağı düşməsi səbəbindən qlobal bazarlar yeni ticarət dinamikasına uyğunlaşmışdır.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu səbəbdən hökumət son 8 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, neftin dünya bazarındakı qeyri-sabit qiyməti yerli valyutaya təsir göstərməmiş, eləcə də biznes mühitində qeyri-müəyyənlik artmamışdır.

Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitini də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

2024-cü ilin yanvar-dekabr ayları ərzində Azərbaycan iqtisadiyyatı ötən ilin eyni dövrü ilə müqayisədə 1.1% artım nümayiş etdirərək, ümumilikdə 4.1% genişlənmişdir. Qeyri-neft və qaz sektoru 6.2% artdığı halda, neft və qaz sektorunda 0.3%-lik artım müşahidə olunmuşdur.

ÜDM 2023-cü il ilə müqayisədə 4.1% artaraq, 2024-cü ildə 126.3 milyard AZN-ə (74.3 milyard ABŞ dollarına) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2024-cü il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 47.6 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 26.6 milyard ABŞ dolları ixrac olunan məhsulların, 21.1 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BBB-" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service" ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı vergi, hüquqi, qanunverici və siyasi sahədə irəliləyişlər ilə yanaşı, hökumət tərəfindən həyata keçirilən iqtisadi, maliyyə və monetar tədbirlərdən də asılıdır. Rəhbərlik iqtisadi mühitdə baş verən hadisələrin Cəmiyyətin əməliyyatlarına təsirini və nəticə etibarilə bunun Cəmiyyətin maliyyə vəziyyətinə necə təsir edəcəyini proqnozlaşdırmaq iqtidarında deyil.

## 29. KAPİTALIN İDARƏ OLUNMASI

Cəmiyyət maliyyə xidmətləri sahəsində fəaliyyəti zamanı təsdiq edilmiş kapitalın minimal məbləği, likvidlik göstəriciləri və açıq valyuta mövqeyinin daimi olaraq aşağıdakı qaydalar əsasında müəyyənləşdirilmiş səviyyədə saxlanılmasını təmin etməlidir:

| | |
|---|---|
| Təsdiq edilmiş kapitalın minimal məbləği | 20,000,000 AZN |
| Gündəlik ani likvidlik əmsalı | ən azı 50% |
| **Açıq valyuta mövqeləri:** | |
| Sərbəst üzən valyuta ayrılıqda | Hər biri üzrə 5% |
| Qapalı valyuta sistemi ayrılıqda | Hər biri üzrə 3% |
| Sərbəst üzən valyutalarda açıq valyuta mövqeyi | Ümumi 10% |
| Qapalı valyuta sistemi üzrə açıq valyuta mövqeyi | Ümumi 7% |

31 dekabr 2024-cü il tarixinə Cəmiyyət Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən poçt fəaliyyəti ilə bağlı müəyyən etdiyi normativ tələblərə riayət etmişdir.

## 30. MALİYYƏ ALƏTLƏRİNİN QİYMƏTLƏNDİRMƏ KATEQORİYALARI ÜZRƏ TƏQDİM EDİLMƏSİ

"Maliyyə alətləri" adlı 9 saylı MHBS standartına uyğun olaraq, maliyyə aktivləri qiymətləndirmə məqsədilə aşağıdakı kateqoriyalara təsnifləşdirilir:

(a) MZVƏD kateqoriyasında ölçülən maliyyə aktivləri;
(b) DMGVƏD kateqoriyasında ölçülən borc alətləri;
(c) DMGVƏD kateqoriyasında ölçülən kapital alətləri; və
(d) amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri.

MZVƏD kateqoriyasında ölçülən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür:

(i) MZVƏD kateqoriyasında məcburi qaydada qiymətləndirilən aktivlər; və
(ii) ilkin tanınma zamanı və ya sonradan həmin kateqoriyaya aid edilmiş aktivlər.

31 dekabr 2024-cü il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

| **Aktivlər** | **Amortizasiya olunmuş dəyər** |
|---|---|
| ***Pul vəsaitləri və onların ekvivalentləri*** | |
| - Nağd pul vəsaitləri | 20,838,491 |
| - ATM-də olan pul vəsaitləri | 5,571,628 |
| - ARMB-də olan pul vəsaitlərinin qalıqları | 26,962,358 |
| - Digər banklardakı müxbir hesablar | 364,138,596 |
| ***Amortizasiya olunmuş dəyərdə təsnifləşdirilən investisiyalar*** | |
| - İnvestisiya qiymətli kağızları | 300,205,329 |
| ***Debitor borcları və digər alınacaq vəsaitlər*** | |
| - Debitor borcları | 7,675,738 |
| **Cəmi maliyyə aktivləri** | **725,392,140** |

2024-cü il ərzində Cəmiyyətin bütün maliyyə öhdəlikləri amortizasiya olunmuş dəyərlə uçota alınmışdır.

31 dekabr 2023-cü il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

| | **Amortizasiya olunmuş dəyər** |
|---|---|
| **Aktivlər** | |
| ***Pul vəsaitləri və onların ekvivalentləri*** | |
| - Nağd pul vəsaitləri | 31,837,472 |
| - Tranzitdə olan pul vəsaitləri | 12,530 |
| - ATM-də olan pul vəsaitləri | 9,985,203 |
| - ARMB-də olan pul vəsaitlərinin qalıqları | 8,464,545 |
| - Digər banklardakı müxbir hesablar | 110,882,264 |
| ***Amortizasiya olunmuş dəyərdə təsnifləşdirilən investisiyalar*** | |
| - İnvestisiya qiymətli kağızları | 355,021,268 |
| ***Amortizasiya olunmuş dəyərdə təsnifləşdirilən əks* repo *müqavilələri üzrə debitor borcları*** | |
| - Əks repo müqavilələri üzrə debitor borcları | 31,033,108 |
| ***Debitor borcları və digər alınacaq vəsaitlər*** | |
| - Debitor borcları | 10,017,617 |
| **Cəmi maliyyə aktivləri** | **557,254,007** |

2023-cü il ərzində Cəmiyyətin bütün maliyyə öhdəlikləri amortizasiya olunmuş dəyərlə uçota alınmışdır.

## 31. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Cəmiyyət daxilində risklərin idarə edilməsi maliyyə riskləri, əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən valyuta riski, faiz dərəcəsi riski və digər qiymət riskləri), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

### Bazar riski

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) xarici valyuta (b) faiz dərəcələri və (c) pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar riskinə məruz qalır. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Buna baxmayaraq, bu cür yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklər baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

## Valyuta riski

Valyuta riski satış, alış və borc alınmış vəsaitlər üzrə əməliyyatlar Cəmiyyətin müvafiq əməliyyat valyutalarından başqa valyutalarda ifadə olunduqda yaranır.

| | 31 dekabr 2024-cü il tarixinə | | |
|---|---|---|---|
| | **Monetar maliyyə aktivləri** | **Monetar maliyyə öhdəlikləri** | **Xalis balans mövqeyi** |
| Azərbaycan manatı | 430,571,210 | (474,433,168) | (43,861,958) |
| ABŞ dolları | 254,488,527 | (195,576,169) | 58,912,358 |
| Avro | 35,089,716 | (39,652,420) | (4,562,704) |
| Rus rublu | 1,064,788 | - | 1,064,788 |
| İngiltərə funt sterlinqi | 194,689 | (625,960) | (431,271) |
| SDR | 3,983,210 | (527,741) | 3,455,469 |
| **Cəmi** | **725,392,140** | **(710,815,458)** | **14,576,682** |

| | 31 dekabr 2023-cü il tarixinə | | |
|---|---|---|---|
| | **Monetar maliyyə aktivləri** | **Monetar maliyyə öhdəlikləri** | **Xalis balans mövqeyi** |
| Azərbaycan manatı | 256,918,625 | (350,660,402) | (93,741,777) |
| ABŞ dolları | 255,415,915 | (156,207,383) | 99,208,532 |
| Avro | 36,923,326 | (36,094,874) | 828,452 |
| Rus rublu | 641,042 | - | 641,042 |
| İngiltərə funt sterlinqi | 121,521 | - | 121,521 |
| SDR | 7,233,578 | (3,511,435) | 3,722,143 |
| **Cəmi** | **557,254,007** | **(546,474,094)** | **10,779,913** |

Yuxarıdakı cədvələ yalnız monetar aktiv və öhdəliklər daxildir. Cəmiyyət hesab edir ki, kapital investisiyaları və qeyri-monetar aktivlər əhəmiyyətli valyuta riskinin yaranmasına gətirib çıxarmır.

İl ərzində aşağıdakı əhəmiyyətli valyuta məzənnələri tətbiq edilmişdir:

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| 1 ABŞ dolları | 1.7000 | 1.7000 |
| 1 Avro | 1.7724 | 1.8766 |
| 1 Rus rublu | 0.0163 | 0.0188 |
| 1 İngiltərə funt sterlinqi | 2.1382 | 2.1643 |
| 1 SDR | 2.2170 | 2.2808 |

Bütün digər dəyişənlərin sabit qalması şərtilə, hesabat dövrünün sonuna Cəmiyyətin əməliyyat valyutasına tətbiq edilən valyuta məzənnələrindəki mümkün dəyişikliklərin mənfəət və ya zərərə, eləcə də kapitala təsiri aşağıdakı cədvəldə əks etdirilir:

| | **31 dekabr 2024-cü il Vergidən əvvəlki zərərə təsir** | **31 dekabr 2023-cü il Vergidən əvvəlki zərərə təsir** |
|---|---|---|
| ABŞ dollarının 20% möhkəmlənməsi | 11,782,472 | 19,841,706 |
| ABŞ dollarının 20% zəifləməsi | (11,782,472) | (19,841,706) |
| Avronun 20% möhkəmlənməsi | 912,541 | 165,690 |
| Avronun 20% zəifləməsi | (912,541) | (165,690) |
| Rus rublunun 20% möhkəmlənməsi | 212,958 | 128,208 |
| Rus rublunun 20% zəifləməsi | (212,958) | (128,208) |
| İngiltərə funt sterlinqinin 20% möhkəmlənməsi | 86,254 | 24,304 |
| İngiltərə funt sterlinqinin 20% zəifləməsi | (86,254) | (24,304) |
| SDR-in 20% möhkəmlənməsi | 691,094 | 744,429 |
| SDR-in 20% zəifləməsi | (691,094) | (744,429) |

**Faiz dərəcəsi riski**

Cəmiyyət bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Aşağıdakı cədvəldə Cəmiyyətin məruz qaldığı faiz dərəcəsi riski üzrə ümumi təhlil əks olunur. Cədvəldə Cəmiyyətin maliyyə aktivləri və öhdəliklərinin balans dəyəri üzrə ümumiləşdirilmiş məbləğləri, müqavilə üzrə faizlərin yenidən qiymətləndirilməsi və ya ödəmə tarixlərinin daha erkən tarixinə görə təsnifləşdirilir.

| | **Tələb edilənədək və 1 aydan az** | **1 aydan 6 aya kimi** | **6 aydan 1 ilə kimi** | **1 ildən artıq** | **Cəmi** |
|---|---|---|---|---|---|
| Cəmi maliyyə aktivləri | 431,275,959 | 103,589,618 | 36,546,286 | 153,980,277 | 725,392,140 |
| Cəmi maliyyə öhdəlikləri | (703,708,320) | (883,687) | (1,024,719) | (5,198,732) | (710,815,458) |
| **31 dekabr 2024-cü il tarixinə faiz dərəcələri üzrə xalis həssaslıq kəsiri** | **(272,432,361)** | **102,705,931** | **35,521,567** | **148,781,545** | **14,576,682** |
| Cəmi maliyyə aktivləri | 207,343,345 | 122,774,683 | 39,926,095 | 187,209,884 | 557,254,007 |
| Cəmi maliyyə öhdəlikləri | (515,596,625) | (23,095,679) | (1,154,650) | (6,627,140) | (546,474,094) |
| **31 dekabr 2023-cü il tarixinə faiz dərəcələri üzrə xalis həssaslıq kəsiri** | **(308,253,280)** | **99,679,004** | **38,771,445** | **180,582,744** | **10,779,913** |

Rəhbərlik təkrar bazarda yüksək likvidliyə malik olan investisiya qiymətli kağızlarını ilkin ödəmə tarixindən əvvəl satmaqla bu kəsiri aradan qaldırmağı planlaşdırır.

Rəhbərlik faiz dərəcəsi üzrə risklərin Cəmiyyətin fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərmədiyini hesab etdiyinə görə Cəmiyyətdə belə risklərin idarə edilməsi üçün rəsmi siyasət və prosedurlar mövcud deyil.

**Kredit riski**

Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəfin öz öhdəliyini yerinə yetirə bilməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurularsa, Cəmiyyət kredit riskinə məruz qalır. Kredit riski Cəmiyyətin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır. Cəmiyyətin hər bir filialı yeni müştərilərinə şərtləri təklif etməmişdən əvvəl kredit risklərinin idarə edilməsinə və təhlil olunmasına cavabdehdir. Kredit riski pul vəsaitləri və onların ekvivalentləri, eləcə də debitor borclar ilə əlaqədar yaranır.

Rəhbərlik müştərilərin kredit keyfiyyətini qiymətləndirərkən onların maliyyə vəziyyətini, keçmiş təcrübəsini və digər amilləri nəzərə alır və hesabat dövründə bu qarşı tərəflərin öz öhdəliklərini yerinə yetirməməsi ilə bağlı hər hansı zərərin yaranacağını ehtimal etmir.

Aktivlərin növləri üzrə Cəmiyyətin kredit riskinin maksimal səviyyəsi aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Debitor borcları və digər alınacaq vəsaitlər** | | |
| - Debitor borcları | 7,675,738 | 10,017,617 |
| **Amortizasiya olunmuş dəyərdə təsnifləşdirilən investisiyalar** | | |
| - İnvestisiya qiymətli kağızları | 300,205,329 | 355,021,268 |
| **Amortizasiya olunmuş dəyərdə təsnifləşdirilən əks repo müqavilələri üzrə debitor borcları** | | |
| - Əks repo müqavilələri üzrə debitor borcları | - | 31,033,108 |
| **Pul vəsaitləri və onların ekvivalentləri** | | |
| - Tələb edilənədək bank qalıqları | 391,100,954 | 119,346,809 |
| | **698,982,021** | **515,418,802** |

***Kredit riskinin təsnifatı sistemi***

Kredit riskinin qiymətləndirilməsi və kredit riskinin səviyyəsinə görə maliyyə alətlərinin təsnifləşdirilməsi məqsədilə Cəmiyyət beynəlxalq reytinq agentlikləri ("Standard & Poor's" – "S&P", "Fitch", "Moody's") tərəfindən müəyyən edilən risk dərəcələrindən istifadə edir.

Xarici kredit reytinqləri və müvafiq kredit riski dərəcələri aşağıdakı cədvəldə göstərilir:

| **Vahid şkala üzrə kredit riski dərəcələri** | **Kənar beynəlxalq reytinq agentliklərinin müvafiq reytinqləri (Moody's)** |
|---|---|
| Ən yüksək dərəcə | Aaa-dan Ba1-ə |
| Yüksək dərəcə | Ba2-dən B1-ə |
| Orta dərəcə | B2, B3 |
| Xüsusi monitorinq tələb edir | Caa1+ -dən Ca-ya |
| Defolt | C |

Vahid şkala üzrə kredit riskinin hər bir səviyyəsi üçün müəyyən kredit riski dərəcələri təyin olunur:

- Ən yüksək dərəcə – aşağı kredit riski olan yüksək keyfiyyəti kreditlər;
- Yüksək dərəcə – orta kredit riski olan kifayət qədər keyfiyyətli kreditlər;
- Orta dərəcə – qənaətbəxş kredit riski olan orta keyfiyyətli kreditlər;
- Xüsusi monitorinq tələb edir – daha ətraflı monitorinq və bərpaedici idarəetmə tələb edən kreditləşdirmə mexanizmləri; və
- Defolt – defolt hadisəsi baş vermis kreditləşdirmə mexanizmləri.

Kontragentlərə kənar reytinqlər "S&P", "Moody's" və "Fitch" kimi müstəqil beynəlxalq reytinq agentlikləri tərəfindən təyin edilir. Bu reytinqlər ictimaiyyətə açıqdır. Həmin reytinqlər və defolt ehtimalları ("DE") üzrə müvafiq intervallar aşağıdakı maliyyə alətlərinə tətbiq edilir: pul vəsaitləri və onların ekvivalentləri.

Bu reytinqlər topdansatış müştərilər üçün müstəqil qiymətləndirmə aparıldıqda tətbiq olunur. Əks təqdirdə Cəmiyyətin risklərə nəzarət funksiyası müştərinin maliyyə vəziyyətini, keçmiş təcrübəsini və digər amilləri nəzərə alaraq, onun kredit keyfiyyətini qiymətləndirir. Fərdi risk limitləri rəhbərlik tərəfindən müəyyən edilmiş limitlərə uyğun olaraq daxili və ya xarici reytinqlərə əsasən yaradılır. Topdansatış müştərilərin kredit limitlərinə uyğunluğu müntəzəm olaraq rəhbərlik tərəfindən yoxlanılır.

***Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərləri***

Cəmiyyətin ehtimal olunan kredit zərəri modelinə məruz qalan debitor borcları və ödəmə müddətinə qədər saxlanılan investisiyaları var.

9 saylı MHBS-nin dəyərsizləşmə ilə bağlı tələbləri pul vəsaitləri və onların ekvivalentlərinə də şamil olunsa da, müəyyən edilmiş dəyərsizləşmə zərərinin həcmi əhəmiyyətsiz olmuşdur.

**Debitor borcları**

Cəmiyyət ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi üçün 9 saylı MHBS-də nəzərdə tutulan sadələşdirilmiş yanaşma tətbiq edir. Bu yanaşma bütün debitor borcları üçün bütöv müddət üzrə ehtimal olunan kredit zərərləri ehtiyatını nəzərdə tutur.

EOKZ-nin qiymətləndirilməsi üçün debitor borcları kredit riskinin ümumi xüsusiyyətlərinə və vaxtı keçmiş günlərin sayına əsasən qruplaşdırılmışdır.

EOKZ səviyyəsi müvafiq olaraq 31 dekabr 2024-cü il tarixinə qədər 36 ay ərzində həyata keçirilən satışlar üzrə ödəniş cədvəllərinə və bu dövr ərzində yaranmış əvvəlki dövrün kredit zərərlərinə əsaslanır.

Debitor borcların bərpasına dair əsaslandırılmış gözləntilər olmadıqda belə debitor borcları silinir. Debitor borcların bərpasına dair əsaslandırılmış gözləntilərə digər məsələlərlə yanaşı, debitorun Cəmiyyətlə razılaşdırılmış ödəniş cədvəlinə riayət edə bilməməsi və müqavilədə nəzərdə tutulan ödənişlərin 90 gündən çox gecikdirilməsi daxildir.

Hər bir müştərinin fərdi xüsusiyyəti Cəmiyyətin kredit riskinə təsir edir. Bununla belə, rəhbərlik hesab edir ki, müştərilərin fəaliyyət göstərdiyi ölkə və iqtisadi sektora xas risklər də daxil olmaqla, Cəmiyyətin müştəri bazasının demoqrafiyası, xüsusilə hazırkı iqtisadi şəraitdə kredit riskinə təsir edən amillərdəndir.

Xarici poçt idarələrinin debitor borcları ilə əlaqədar yaranan kredit riski adətən Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə uyğun olaraq, hər bir ölkə üzrə xarici poçt idarələrinə ödəniləcək kreditor borcları ilə əvəzləşdirilməklə aradan qaldırılır. Hər bir xarici poçt idarəsi ilə yekun hesablaşma xidmət göstərildikdən sonra bir il və ya daha artıq dövrdə aparıla bilər. Xarici poçt idarələrinin ümidsiz debitor borcları üzrə Cəmiyyətin yaratdığı ehtiyat yekun ödənişdən sonrakı dövrə əsaslanır.

Debitor borcları üzrə dəyərsizləşmə zərərləri əməliyyat mənfəətinin tərkibində xalis dəyərsizləşmə zərəri kimi göstərilir. Əvvəllər silinmiş məbləğlərin sonradan bərpası da eyni sətir maddəsində göstərilir.

Ümumiyyətlə, EOKZ aşağıdakı kredit riski parametrlərinin hasilinə bərabərdir: effektiv faiz dərəcəsindən istifadə etməklə cari dəyərə diskontlaşdırılan defolt vəziyyətində riskə məruz qalan dəyər (DVRMQ), defolt ehtimalı (DE) və defolt zamanı yaranan zərər (DZYZ). EOKZ hər bir fərdi maliyyə aktivinin bütöv müddəti ərzində hər bir növbəti il üçün kredit riski parametrlərini (DVRMQ, DE, DZYZ) proqnozlaşdırmaqla müəyyən edilir.

DVRMQ – hesabat dövründən sonra kredit qalığının məbləğində ehtimal olunan dəyişiklikləri nəzərə alaraq, gələcək defolt tarixində kredit qalığının qiymətləndirilməsi, o cümlədən əsas borc və faizlərin ödənilməsi və kredit öhdəlikləri üzrə vəsaitlərin ehtimal olunan istifadəsidir.

DE – müəyyən müddət ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsidir.

DZYZ – defolt baş verdiyi zaman yaranan zərərin qiymətləndirilməsidir. Bu, müqavilə üzrə ödənilməli gələcək pul axınları ilə borcalanın əldə etməsi ehtimal olunan pul axınları arasındakı fərqə əsaslanır. Adətən bu göstərici DZYZ-nin faiz nisbəti kimi ifadə edilir. Ehtimal olunan zərərlər hesabat dövrünün sonuna cari dəyərə diskontlaşdırılır.

Bu üç komponentin hasili tapılır və bərpa ehtimalını (yəni, maliyyə aktivinin əvvəlki ayda ödənilməsi və ya defolt olması) nəzərə alaraq onlara düzəliş edilir. Bu, hər bir gələcək dövr üçün EOKZ-nin hesablanmasını effektiv şəkildə təmin edir və sonradan hesabat tarixinə geri diskontlaşdırılaraq toplanır. EOKZ-nin hesablanması üçün istifadə edilən diskont dərəcəsi ilkin effektiv faiz dərəcəsi və ya onun təxmini dəyəridir.

Kənar reytinqlər əsasında qiymətləndirmə prinsipləri. Bəzi kredit qalıqları üzrə beynəlxalq reytinq agentlikləri tərəfindən dərc edilmiş kredit reytinqləri mövcuddur ki, bu da defolt və defolt vəziyyətindən qayıtma statistikasına əsasən DE və DZYZ kimi kredit riski parametrlərini qiymətləndirmək üçün istifadə olunur.

***EOKZ modellərinə daxil edilmiş proqnoz məlumatlar***

EOKZ-nin qiymətləndirilməsi üçün miqrasiya cədvəlindən istifadə edildikdə proqnoz məlumatları artıq təyin olunmuş kənar reytinqə daxil edilir.

Debitor borcları üçün sadələşdirilmiş yanaşma üzrə perspektivli yanaşma.

- EOKZ-nin hesablanması prosesində ən son makroiqtisadi şərtlərin əsas hissəsi artıq nəzərə alındığına görə debitor borclar üzrə DE və DZYZ son 36 aylıq məlumatlara əsasən hesablanır;
- Yaxın gələcəkdə ehtimal olunan makroiqtisadi mühit DE və DZYZ-ni hesablayarkən mövcud makroiqtisadi vəziyyətə oxşardır;
- Cəmiyyətin debitor borclarının ödəmə müddəti 30 gündən azdır. Uzunmüddətli makroiqtisadi inkişaf seqmentlər üzrə risk profilinin yaradılmasında əhəmiyyətli rol oynamır. Bu səbəbdən debitor borclar üzrə proqnoz düzəlişi aparılmamışdır.

Cəmiyyət maliyyə aktivləri üzrə təxminlər və faktiki zərərlər arasındakı fərqlərin azaldılması üçün öz metodologiya və fərziyyələrini müntəzəm olaraq nəzərdən keçirir. Belə fərqlərin təhlili (bək-testinq) ən azı ildə bir dəfə aparılır.

EOKZ-nin qiymətləndirilməsi metodologiyası üzrə bək-testinq nəticələri Cəmiyyətin rəhbərliyinə təqdim edilir və səlahiyyətli şəxslərlə razılaşdırıldıqdan sonra modellərin və fərziyyələrin təkmilləşdirilməsi üçün növbəti addımlar müəyyən edilir.

***Likvidlik riski***

Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsində müəssisənin çətinliklərlə üzləşəcəyi riskidir. Cəmiyyət əsasən borc alınmış vəsaitlər və kreditor borcları və digər ödəniləcək vəsaitlərdən ibarət olan davamlı maliyyələşmə bazasını saxlamağa çalışır. Cəmiyyət gözlənilməyən likvidlik tələblərini tez bir zamanda və asanlıqla yerinə yetirmək üçün vəsaitləri pul vəsaitləri və onların ekvivalentləri şəklində saxlayır.

Likvidliyin idarə olunmasına Cəmiyyətin yanaşması mümkün qədər həm normal, həm də çətin şəraitdə qəbul edilməz zərərlər çəkmədən və ya Cəmiyyətin nüfuzuna xələl gətirmədən öz öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər likvidliyi təmin etməkdir.

31 dekabr 2024-cü il tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| | **Tələb əsasında və 1 aydan az** | **1 aydan 6 ayadək** | **6 aydan 1 ilədək** | **1 ildən artıq** | **31 dekabr 2024-cü il Cəmi** |
|---|---|---|---|---|---|
| **Öhdəliklər:** | | | | | |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 156,877,199 | - | - | - | 156,877,199 |
| İcarə öhdəlikləri | 12,516 | 62,578 | 75,094 | 68,605 | 218,793 |
| Kreditor borcları və digər ödəniləcək maliyyə vəsaitləri | 24,294,016 | - | - | - | 24,294,016 |
| Müştəri hesabları | 522,358,444 | - | - | - | 522,358,444 |
| Digər borc alınmış vəsaitlər | 214,045 | 1,060,609 | 1,237,026 | 6,834,978 | 9,346,658 |
| **Cəmi maliyyə öhdəlikləri** | **703,756,220** | **1,123,187** | **1,312,120** | **6,903,583** | **713,095,110** |

31 dekabr 2023-cü il tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| | **Tələb əsasında və 1 aydan az** | **1 aydan 6 ayadək** | **6 aydan 1 ilədək** | **1 ildən artıq** | **31 dekabr 2023-cü il Cəmi** |
|---|---|---|---|---|---|
| **Öhdəliklər:** | | | | | |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 32,673,388 | 22,100,000 | - | - | 54,773,388 |
| İcarə öhdəlikləri | 29,750 | 59,500 | 267,751 | 85,059 | 442,060 |
| Kreditor borcları və digər ödəniləcək maliyyə vəsaitləri | 14,701,570 | - | - | - | 14,701,570 |
| Müştəri hesabları | 468,020,472 | - | - | - | 468,020,472 |
| Digər borc alınmış vəsaitlər | 230,078 | 1,140,095 | 1,327,949 | 9,290,437 | 11,988,559 |
| **Cəmi maliyyə öhdəlikləri** | **515,655,258** | **23,299,595** | **1,595,700** | **9,375,496** | **549,926,049** |

## 32. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

31 dekabr 2024-cü və 2023-cü il tarixlərinə Cəmiyyətin ədalətli dəyərdə ölçülən maliyyə alətləri mövcud olmamışdır.

Aşağıdakı cədvəl ədalətli dəyərlə ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edir və onları ədalətli dəyər iyerarxiyasının hər bir ədalətli dəyərin ölçüldüyü səviyyəyə görə təhlil edir:

| | | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyər ölçüsü | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci Səviyyə)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci Səviyyə)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü Səviyyə)** | **31 dekabr 2024-cü il Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2024-cü il | 417,511,073 | - | - | 417,511,073 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 31 dekabr 2024-cü il | - | - | 7,675,738 | 7,675,738 |
| İnvestisiya qiymətli kağızları | 31 dekabr 2024-cü il | - | 300,070,765 | - | 300,070,765 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 31 dekabr 2024-cü il | - | 156,877,199 | - | 156,877,199 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 31 dekabr 2024-cü il | - | - | 24,294,016 | 24,294,016 |
| Müştəri hesabları | 31 dekabr 2024-cü il | - | - | 522,358,444 | 522,358,444 |
| Digər borc alınmış vəsaitlər | 31 dekabr 2024-cü il | - | - | 7,080,801 | 7,080,801 |

| | | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyər ölçüsü | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarda təyin olunmuş qiymətlər (1-ci Səviyyə)** | **Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (2-ci Səviyyə)** | **Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (3-cü Səviyyə)** | **31 dekabr 2023-cü il Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2023-cü il | 161,182,014 | - | - | 161,182,014 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 31 dekabr 2023-cü il | - | - | 10,017,617 | 10,017,617 |
| İnvestisiya qiymətli kağızları | 31 dekabr 2023-cü il | - | 353,803,252 | - | 353,803,252 |
| Əks repo müqavilələri üzrə debitor borcları | 31 dekabr 2023-cü il | - | 31,033,108 | - | 31,033,108 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 31 dekabr 2023-cü il | - | 54,773,388 | - | 54,773,388 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 31 dekabr 2023-cü il | - | - | 14,701,570 | 14,701,570 |
| Müştəri hesabları | 31 dekabr 2023-cü il | - | - | 468,020,472 | 468,020,472 |
| Digər borc alınmış vəsaitlər | 31 dekabr 2023-cü il | - | - | 8,563,257 | 8,563,257 |

## Ədalətli dəyərdə əks etdirilməyən maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri

Aşağıdakı qeydlər, maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərdə əks etdirilməyən Cəmiyyətin maliyyə alətlərinin balans dəyərləri və ədalətli dəyərlərin növü ilə müqayisə edilir. Cədvəldə qeyri-maliyyə aktivlərinin və qeyri-maliyyə öhdəliklərinin ədalətli dəyərləri daxil deyildir.

| | Balans dəyəri 2024-cü il | Ədalətli dəyər 2024-cü il | Tanınmayan mənfəət/ (zərər) 2024-cü il | Balans dəyəri 2023-cü il | Ədalətli dəyər 2023-cü il | Tanınmayan mənfəət/ (zərər) 2023-cü il |
|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 417,511,073 | 417,511,073 | - | 161,182,014 | 161,182,014 | - |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 7,675,738 | 7,675,738 | - | 10,017,617 | 10,017,617 | - |
| İnvestisiya qiymətli kağızları | 300,205,329 | 300,070,765 | (134,564) | 355,021,268 | 353,803,252 | (1,218,016) |
| Əks repo müqavilələri üzrə debitor borcları | - | - | - | 31,033,108 | 31,033,108 | - |
| **Maliyyə öhdəlikləri** | | | | | | |
| Borc alınmış vəsaitlər | 7,080,801 | 7,080,801 | - | 8,563,257 | 8,563,257 | - |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 156,877,199 | 156,877,199 | - | 54,773,388 | 54,773,388 | - |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 24,294,016 | 24,294,016 | - | 14,701,570 | 14,701,570 | - |
| Müştəri hesabları | 522,358,444 | 522,358,444 | - | 468,020,472 | 468,020,472 | - |
| **Reallaşdırılmamış ədalətli dəyərdə cəmi tanınmamış dəyişiklik** | | | **(134,564)** | | | **(1,218,016)** |

## Ədalətli dəyəri balans dəyərinə yaxın olan aktiv və öhdəliklər

Likvid və ya ödəmə müddəti az qalmış (üç aydan az) maliyyə aktivləri və maliyyə öhdəlikləri üçün ədalətli dəyərin balans dəyərinə yaxın olması fərz olunur. Bu fərziyyə həmçinin xüsusi ödəmə müddəti və dəyişən dərəcəli maliyyə alətləri olmayan depozitlərə də tətbiq edilir.

## Sabit və dəyişə bilən maliyyə alətləri

Kotirovkası mövcud olan borc alətləri üçün ədalətli dəyər kotirovkalara uyğunlaşdırılmış bazar qiyməti ilə müəyyən olunur. Kotirovkası mövcud olmayan borc alətləri üçün ədalətli dəyər isə eyni şərtlər altında mümkün ola bilən dərəcələrdən istifadə etməklə gələcəkdə diskontlaşdırılmış pul axınları, kredit riskləri və ödəmə tarixləri vasitəsilə ölçülür.